EVDƏ QAL,
SAĞLAM QAL!

İlham Əliyev: “Karantin rejimi ilə bağlı tətbiq edilən qaydalar hər kəs üçün əsas olmalıdır”



Bax 3

Mehriban Əliyeva şəhid ailələrinin ev probleminin həlli ilə bağlı göstəriş verib



Bax 4




“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 114 (6079) 9 iyul 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# “Azərbaycan BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi üçün fəal surətdə çalışır”



Bax 2

## Prezident İlham Əliyev BMT-nin Baş katibi Antonio Quterreşə telefonla zəng edib

## Prezident İlham Əliyevin Nazirlər Kabineti yanında Operativ Qərargaha göstərişinə uyğun olaraq COVID-19 sahəsində çalışan bir qrup xarici mütəxəssis Azərbaycana gəlib



*Prezident İlham Əliyevin Nazirlər Kabineti yanında Operativ Qərargaha göstərişinə uyğun olaraq yeni növ koronavirus (COVID-19) sahəsində çalışan bir qrup xarici mütəxəssis Azərbaycana gəlib.* Bax 5

## Miqran Akobyan: “Paşinyan rejiminin hər günü Ermənistan və Qarabağ üçün təhlükədir”



*Paşinyan rejiminin mövcudluğunun hər günü Ermənistanın və Dağlıq Qarabağın fiziki təhlükəsizliyi üçün ciddi təhlükə yaradır. SİA Ermənistana məxsus tert.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə sosial...* Bax 5

## “Azərbaycan Prezidentinin səsləndirdiyi fikirlər Minsk qrupuna öz vəzifələrini yerinə yetirmələri üçün bir çağırışdır”

Bax 6



İyulun 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Xətai rayonunda Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli hospitalının açılışında iştirak etdilər. Hadisənin özü özlüyündə...

## Əli Kərimli - zəmanəmizin Ostap Benderi

Bax 13



“Milli Şura”nın koordinasiya mərkəzində toplaşan yığnağın günü-gündən daha böyük səhvlər və sözün əsl mənasında qələtlər etməsi sanki bir ənənəyə çevrilib. Oradakı anti-milli ünsürlərin gah neftin qiymətinin aşağı düşməsi...

## Döyüş ruhu, qələbə əzmi və sağlam mənəvi-psixoloji mühitlə də silahlanan qüdrətli Azərbaycan Ordusu

Bax 8



Ona görə bütün bu amillər - orduya, zabitə, əsgərə qayğı, məişət, xidmət şəraitinin yaxşılaşdırılması və ordumuzun silah-sursat, texnika...

## Kassirin səhvi pensiyaçını milyonçu etdi



Bax 7

## Tramp: ABŞ-da koronavirusla bağlı vəziyyət bir aya yaxşılaşacaq



Bax 7

## İbrahimoviç: Mən “Milan”da prezident, oyunçu və məşqçiyəm!



Bax 16

# "Azərbaycan BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi üçün fəal surətdə çalışır"

## *Prezident İlham Əliyev BMT-nin Baş katibi Antonio Quterreşə telefonla zəng edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Baş katibi Antonio Quterreşə telefonla zəng edib. Telefon danışığı əsnasında Prezident İlham Əliyev bildirib ki, Azərbaycan COVID-19 pandemiyasına qarşı mübarizədə Baş katibin və BMT-nin səylərini, o cümlədən çoxtərəfli əməkdaşlığı dəstəkləyir.***

Dövlətimizin başçısı COVID-19 pandemiyasına qarşı mübarizə məqsədilə Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları məbləğində ianə, 30-dan çox ölkəyə isə humanitar və maliyyə yardımı ayırdığını qeyd edib.

Prezident İlham Əliyev Qoşulmama Hərəkatının sədri statusunda üzv dövlətlər adından BMT Baş Assambleyasının COVID-19-a həsr olunmuş xüsusi sessiyasının çağırılması barədə müraciətinə qısa müddətdə cavab verdiyinə görə Baş katibə təşəkkürünü çatdırıb və BMT-nin 130-dan çox üzv dövlətinin bu təşəbbüsü dəstəklədiyini vurğulayıb.

Dövlətimizin başçısı BMT Baş Assambleyasının COVID-19-a həsr olunmuş xüsusi sessiyasının çağırılmasında Baş katibin liderliyinin mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Prezident İlham Əliyev xüsusi sessiyanın keçirilməsi ilə əlaqədar texniki-logistik məsələlərin həllində Azərbaycanın öz töhfəsini verməyə hazır olduğunu bildirib.

BMT-nin Baş katibi Antonio Quterreş telefon zənginə görə Prezident İlham Əliyevə təşəkkür edib. Baş katib BMT Baş Assambleyasının COVID-19-a həsr olunmuş xüsusi sessiyasının keçirilməsi təşəbbüsünü dəstəklədiyini qeyd edərək, texniki-logistik məsələlərin həlli ilə əlaqədar BMT-nin Azərbaycan tərəfi ilə birlikdə işləməyə hazır olduğunu deyib. Eyni zamanda, Baş katib Azərbaycanın BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi üçün fəal surətdə çalışdığını bildirib.

Prezident İlham Əliyev və Baş katib Antonio Quterreş telefon danışığında əminliklərini ifadə ediblər ki, keçiriləcək xüsusi sessiya COVID-19 pandemiyasına qarşı mübarizədə önəmli addım olacaq.

# "Yaponiya Azərbaycanla tərəfdaşlığa böyük önəm verir"



Azərbaycanın Yaponiyadakı səfirliyinin təşəbbüsü ilə səfir Gürsel İsmayılzadə Yaponiya Xarici İşlər nazirinin parlament üzrə müavini, Yaponiya parlamentinin üzvü Şiniçi Nakatani ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Yaponiya Xarici İşlər Nazirliyində keçirilən görüşdə iki dost ölkə arasında əməkdaşlığın perspektivləri ilə bağlı geniş fikir mübadiləsi aparılıb.

Səfir G.İsmayılzadə Azərbaycanda hazırkı ictimai-siyasi və iqtisadi vəziyyət, o cümlədən ölkə rəhbərliyi tərəfindən həyat keçirilən geniş islahatlar, qeyri-enerji sektorunun inkişafı, Azərbaycan-Yaponiya münasibətləri haqqında məlumat verib. Diplomat Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə koronavirus ilə mübarizə istiqamətində görülən işlərdən, ölkəmizdə infeksiyanın kütləvi yayılmasının qarşısının uğurla alınmasından bəhs edib.

Ş.Nakatani verilən məlumatlara görə, minnətdarlığını bildirib, Yaponiyada COVID-19 pandemiyasının qarşısının alınması istiqamətində hökumətin fəaliyyəti haqqında məlumat verib.

Görüşdə Azərbaycan-Yaponiya münasibətlərinin inkişafı, əməkdaşlığımızın bir sıra istiqamətlər üzrə perspektivləri istiqamətində müzakirələr aparılıb. Hər iki tərəf enerji sahəsində yüksək səviyyəli əməkdaşlığın uğurla davam etdiyini qeyd edib. Bununla yanaşı, qeyri-enerji sektoru, o cümlədən kənd təsərrüfatı, turizm, yüksək texnologiyalar, nəqliyyat sahələrində də əməkdaşlıq üçün yaxşı perspektivlərin mövcudluğu vurğulanıb.

Söhbət əsnasında nazir müavininə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı geniş məlumat da verilib. Nazir müavini vurğulayıb ki, iki ölkə arasında münasibətlərin daha da gücləndirilməsi istiqamətində ondan asılı olan addımları bundan sonra da atmaqda davam edəcəkdir.

## Azərbaycanda daha 542 nəfər koronavirusa yoluxub

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 542 yoluxma faktı qeydə alınıb, 465 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 9 nəfər vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 21 min 916 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 13 min 100 nəfər müalicə olunaraq sağalıb, 274 nəfər vəfat edib. Aktiv xəstə sayı 8542 nəfərdir. Ötən müddət ərzində 537 min 230 test aparılıb. Bugünkü test sayı isə 7355-dir.



# İlham Əliyev: “Karantin rejimi ilə bağlı tətbiq edilən qaydalar hər kəs üçün əsas olmalıdır”

***Bu gün təxminən yüz gündür ki, dünya gözəgörünməz düşmənlə - koronavirusla “ölüm, ya olum” savaşı aparır. Bu savaşla əlaqədar planetin 7 milyard əhalisinin yarısı - təxminən 4 milyard insan evə qapanıb. Lakin buna baxmayaraq virusa yoluxanların, həyatını itirənlərin sayı günbəgün artır, saatbasaat rəqəmlər dəyişir. , dəyişən rəqəmlər insanlığın üzləşdiyi böyük çağırışdan, milyonların faciəsindən xəbər verir. İtkilər fərqlidir - hər qitəyə, hər ölkəyə, hətta hər şəhərə görə dəyişir. Rəqəmlərin müqayisəsi ölkələr üzrə virusla mübarizənin səmərəliliyini ortaya qoyur.***




Ancaq Prezident İlham Əliyevin uzaqgörənliyinin nəticəsi olaraq vaxtında qəbul edilən düşünülmüş düzgün qərarlar itkiləri minimuma endirməyə imkan yaradıb. Məhz zamanında görülən tədbirlər nəticəsində Azərbaycanın adı nümunəvi ölkələr sırasında çəkilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 6-da Azərbaycan Televiziyasına, İctimai Televiziyaya və “Xəzər” Televiziyasına verdiyi müsahibəsində də ölkədə hazırki vəziyyət, koronavirusla mübaoizə sahəsində görülən işlr barədə məlumat verib.

### “Xəstəliyin yayılmasının başlıca səbəbi bəzi insanların məsuliyyətsizliyidir”

Dövlət başçısı yaranmış bu rejimin nə vaxta kimi davam edəcəyinin məlum olmadığını deməklə, onu da bildirib ki, virusa yoluxmanın səbəbi insanların məsuliyyətsizliyidir: “Ona görə indiki rejim nə qədər davam edəcək və bu rejim daha da sərtləşəcək, yoxsa yumşalacaq, yaxın gələcəkdə biz bunu görəcəyik. Yenə də demək istəyirəm ki, ilk gündən bu günə qədər burada dövlət tərəfindən bütün lazımi addımlar atılıbdır. Xəstəliyin yayılmasının başlıca səbəbi bəzi insanların məsuliyyətsizliyidir. Onlar sadə qaydaları gözləmirlər, bunlara əməl etmirlər. Ona görə biz məcbur olub cərimələri artırdıq. Bəzi hallarda karantin rejimini pozanlara qarşı sərt addımlar atmağa məcbur oluruq. Ancaq onlar da öz məsuliyyətini dərk etməlidirlər. Bütün qaydalar insanların, o cümlədən karantin rejimini pozanların sağlamlığının qorunmasına hesablanıb. Amma biz görürük ki, insanlar bu rejimi nümayişkaranə pozurlar. Dünən məşhur bir oteldə baş verən o biabırçı hadisə dözülməzdir. Ona görə, əlbəttə, Azərbaycan polisi düz edərək müdaxilə edib. Polis orqanlarına mənim tərəfimdən çox ciddi göstəriş verilibdir ki, bütün pozuntulara adekvat reaksiya verilməlidir. Heç kim qanundan üstün deyil - istər yerli, istər xarici şirkət, istər yerli vətəndaş, istər xarici vətəndaş olsun, fərq etmir, biz xalqımızı qorumalıyıq, biz xalqımızın sağlamlığını qorumalıyıq. Eyni zamanda, mövcud qanunlar və karantin rejimi ilə bağlı tətbiq edilən qaydalar hər kəs üçün əsas olmalıdır. Ona görə biz bundan sonra da bu istiqamətdə addımlarımızı atacağıq. Əgər o qaydaları pozan insanlar daha məsuliyyətli olarlarsa və nizam-intizama riayət edərlərsə, hesab edirəm ki, biz pandemiyanı nəzarətdə saxlaya biləcəyik”.

“Biz məhdudlaşdırıcı tədbirlərin görülməsi ilə bağlı addımlarımızı vəziyyətə uyğun şəkildə atırıq”

Prezident İlham Əliyev bildirib ki, məhdudlaşdırıcı tədbirləri vəziyyətə uyğun şəkildə aparırıq: “Biz məhdudlaşdırıcı tədbirlərin görülməsi ilə bağlı addımlarımızı vəziyyətə uyğun şəkildə atırıq. May ayının əvvəlində biz birinci yumşalma addımları atanda mən demişdim ki, xəstəliyin yayılma sürətinin artdığını görsək, yenidən sərtləşdirilmiş məhdudlaşdırıcı tədbirlərə qayıtmalı olacağıq, belə də oldu. Bu gün karantin rejiminin qüvvədə qalması hesab edirəm ki, düzgün addımdır. Bildirməliyəm ki, bir çox ölkələr yenə də karantin rejiminin daha da sərt formasına qayıdırlar”.

“Əlbəttə, hər bir məsələ müqayisə tələb edir və deyə bilərəm ki, bizimlə əhalisi eyni olan bəzi inkişaf etmiş ölkələrdə yoluxanların sayı 60-70 mindir, ölənlərin sayı 10 mindir. O ölkələrin səhiyyə sistemi bir çox hallarda nümunə kimi göstərilirdi. Bu, onu göstərir ki, heç bir ölkə tam şəkildə özünü sığortalanmış hesab edə bilməz və bu xəstəlik sərhəd tanımır. Ona görə beynəlxalq əməkdaşlığa daha böyük ehtiyac var və Azərbaycan bu istiqamətdə lazımi addımları atır”,- deyən dövlət başçısı onu da bildirib ki, bu gün ən maraqlısı odur ki, pandemiyadan ən çox əziyyət çəkən ölkələr inkişaf etmiş ölkələrdir: “Həyat onu göstərdi ki, bu gün pandemiyadan ən çox əziyyət çəkən ölkələr inkişaf etmiş ölkələrdir. Əgər onlar bu məsələyə tam çarə tapa bilmirlərsə, əlbəttə ki, o qədər də inkişaf etməmiş, yaxud da geridə qalmış ölkələrdə vəziyyəti təsəvvür etmək çətin deyil.

Biz, əlbəttə, bütün addımları atanda vəziyyəti dərindən təhlil edirik. Məhdudlaşdırıcı tədbirlər tətbiq olunanda, əlbəttə ki, mütəxəssislərlə, həkimlərlə məsləhətləşmələr aparılır. Yəni, biz bu işi kortəbii aparmırıq, ölçülüb-biçilmiş addımlar atırıq. Bu addımların əsas məqsədi insanlarımızı, onların sağlamlığını, həyatını bu xəstəlikdən qorumaqdır. Pandemiya dövründə bütün imkanlarımız səfərbər olunmalıdır ki, biz bu vəziyyətdən az itkilərlə çıxa bilək”.

“Modul tipli xəstəxanaların tikintisi zəruri idi və biz bunu etdik”

Dövlət başçısı qabaqlayıcı tədbirlərdən biri də modul tipli xəstəxanalarla bağlı da açıqlama verdi: “Bildiyiniz kimi, modul tipli 5 xəstəxana artıq fəaliyyətdədir. Bu xəstəxanaların tez bir zamanda inşa edilməsi onu göstərir ki, biz hətta seytnot vəziyyətdə lazımi addımları ata bilərik. Bildiyiniz kimi, heç bir ölkə bu pandemiyaya hazır deyildi”.

“Ona görə, modul tipli xəstəxanaların tikintisi zəruri idi və biz bunu etdik”-deyən dövlət başçısı bildirib ki, 10 belə xəstəxanalar fəaliyyət göstərəcək: “Bildiyiniz kimi, ikisi Bakıda, biri Sumqayıtda, biri Gəncədə, biri Abşeron rayonunda artıq fəaliyyətdədir və beşinin də tikintisi gedir. Hesab edirdik ki, on xəstəxana bizə kifayət edəcək. Ancaq görürük ki, əlavə xəstəxanalara ehtiyac olacaq. Ona görə, mən bu yaxınlarda göstəriş verdim ki, əlavə on modul tipli xəstəxana sifariş olunsun, onların yerləri müəyyən edilsin və biz ən kritik vəziyyətə hazır olmalıyıq. Əslində, modul tipli bu on xəstəxananın tikintisi ilə bağlı qərarı biz o vaxt vermişdik ki, xəstəliyin yayılması o qədər də geniş vüsət almamışdı”.

Azərbaycan Prezidentinin sözlərinə görə, həmin qərar aprel ayında verilmişdi, o vaxt gündə təqribən 30, 40, 50, 60 insan xəstələnirdi: “Əlbəttə, qabaqlayıcı tədbirlərin görülməsi zəruri idi. Ancaq biz təxmin edə bilməzdik ki, xəstəlik necə inkişaf edəcək. Lakin ehtimal var idi və dünyada gedən proseslər onu göstərirdi ki, xəstələrin sayı arta bilər. Belə olan halda biz çıxılmaz vəziyyətdə qalar, bu xəstələri harada yerləşdirərdik? Ona görə o vaxt bu qərarın qəbul edilməsi düzgün addım idi. Bu gün yenə də modul tipli əlavə on xəstəxananın tikilməsi barədə qərar gələcəyə hesablanır”.

### “Xəstəliklə mübarizədə bizim əlavə imkanlarımız olacaq”

Prezident İlham Əliyev bütün bu görülən işlərlə yanaşı, əlavə imkanların da olacağını deyib: “Təəssüratlar çox müsbətdir. Əsas odur ki, bu xəstəxana çox qısa müddət ərzində ərsəyə gəlib və burada 800 xəstənin yerləşməsi nəzərdə tutulur. Nəzərə alsaq ki, COVID xəstələrinin sayı artmaqdadır, bizə əlavə çarpayılar lazımdır və bu istiqamətdə işlər aparılır”. Dövlət başçısı bildirib ki, bu xəstəxanada bütün lazımi şərait yaradılıb: “Palatalar, laboratoriya, diaqnostika mərkəzi, həkimlər üçün yaxşı şərait vardır. Ən önəmlisi odur ki, bu xəstəxana 800 çarpayılıqdır. Bu ərazidə təqribən bir ay-ay yarım ərzində yeni xəstəxana inşa ediləcək. O da modul tipli xəstəxana olacaq. Orada çarpayıların sayı 1300-ə qədərdir. Yəni, təqribən iki ay ərzində biz 2 mindən çox xəstəni yerləşdirə biləcəyik. Beləliklə, xəstəliklə mübarizədə bizim əlavə imkanlarımız olacaqdır”.

### “Azərbaycan bu gün beynəlxalq siyasətin zirvəsindədir, amma bizə şər atanlar böhran içindədir”

“Avropa qurumlarının saxtakarlığını biz Ermənistanda keçirilmiş bütün seçkilərdə görmüşük. Bütün seçkilər saxtalaşdırılıb, amma bütün seçkilərə müsbət rəy verilib. Heç uzağa getməyək. Guya ki, onlarda baş verən inqilabdan əvvəl Sarkisyan hakimiyyəti qanunsuz zəbt etmək istədi, parlament seçkilərini saxtalaşdırdı, özünə 50 faizdən çox səs yazdırdı. Avropa Şurası Parlament Assambleyası, ATƏT-in müşahidəçi missiyası buna müsbət rəy verdilər. Yaxşı, görmürdünüz ki, bu adam saxtakardır, bu adam səsləri oğurlayıb, Ermənistanda seçicilərin kütləvi qaydada satın alınması prosesi gedir?!”.

Dövlət başçısı bildirib ki, beynəlxalq müşahidəçilər Sarkisyan hakimiyyətinə, onun saxtalaşdırılmış seçkilərinə müsbət rəy verir, ondan sonra xalq ayağa qalxır: “Çünki erməni xalqı Sarkisyana və onun xuntasına nifrət edirdi, bunu gizlətmirdi və nifrətəlayiq bir ünsürdür. O vaxt xalq ayağa qalxanda onun hansı aciz vəziyyətdə olmasını bütün dünya görüb, qorxaqorxa çəkildi kənara, dedi ki, mən səhv etmişəm, məni bağışlayın, qaçdı getdi. Qorxaq. Bunun başqa adı yoxdur. Amma özünü qəhrəman kimi göstərirdi. O hansı qəhrəmandır, bütün dünya gördü. Azərbaycanın dinc əhalisinə qarşı cinayət törədən o cəllad qorxaqcasına qaçıb gizləndi. İndi də əsas məqsədi odur ki, həbs olunmasın. Yəni, bu Sarkisyan xunta rejimi devriləndən sonra parlament seçkiləri elan olunur və onun faşist simvolikası ilə eyni simvolikası olan Respublikaçılar Partiyası heç 1 faiz də səs toplamır. Necə ola bilər, bir neçə ay bundan əvvəl o, 50 faiz, indi isə 1-2 faiz səs toplayır? Təbii ki, saxtakarlıq. Amma mənim sözüm onda deyil. O aydın məsələdir ki, Ermənistan saxta dövlətdir və əlbəttə ki, saxtakarlıq orada əsas amildir. Mənim sözüm bax, buna göz yuman, demokratiyadan dəm vuran, Azərbaycanı qaralamaq istəyən Avropanın saxtakar müşahidəçilərinədir. Cavab verin. Siz buna necə müsbət rəy vermisiniz ki, bu adama bütün erməni xalqı nifrət edir və seçkilər də onu göstərdi”.

### “Bu gün Ermənistanda faşizm ideologiyası üstünlük təşkil edir”

Dövlət başçısı Ermənistanın özü-özünü pis vəziyyətə qoyduğunu, daha doğrusu, dünyadan təcrid etdiyini bildirib: “Ermənistan özü-özünü çox pis vəziyyətə qoydu. Siz qeyd etdiyiniz kimi, özünü dünyadan təcrid etdi. Çünki bu təşəbbüsün əleyhinə çıxmaq ağılsızlıqdır və qeyri-rasional düşüncənin məhsuludur. Çünki biz bu təşəbbüsü irəli sürəndə bir məqsədi güdürdük ki, artıq dünya miqyasında səylərimizi birləşdirək. Bu təşəbbüslə əlaqədar bizim konkret təkliflərimiz də olacaqdır. Çünki türk dünyasında biz bunu keçirdik, 120 ölkəni əhatə edən Qoşulmama Hərəkatı çərçivəsində keçirdik. İndi biz dünya miqyasında bunu keçirmək istəyirik ki, burada vahid bir yanaşma tətbiq olunsun, ölkələr özlərinə qapanmasın, inkişaf etmiş ölkələr ağır vəziyyətdə olan ölkələrə kömək göstərsinlər. Biz bunu görmürük. İndi biz görürük kim kimə kömək göstərir”.

Ardı Səh. 4

# İlham Əliyev: “Karantin rejimi ilə bağlı tətbiq edilən qaydalar hər kəs üçün əsas olmalıdır”



Əvvəli-Səh-3

Dövlət başçısı bildirib ki, peyvənd icad olunandan sonra bu peyvəndi pulla ala bilməyən ölkələrə pulsuz verilsin: “Burada donor təşkilatlar, iri biznes qurumları öz sözünü desin. Yəni, biz bu təklifləri buna görə, həm də həmrəyliyi nümayiş etdirmək üçün veririk. Hələ bilinmir ki, peyvənd icad olunandan sonra nələr baş verəcək? İndi dərmanlar, cihazlar uğrunda mübarizə gedir. Biz özümüz bu vəziyyətlə üzləşmişdik. Biz sifariş edilmiş və pulla alınmış bəzi cihazları ölkəmizə gətirə bilməmişik. Çünki imkan vermədilər. Ona görə peyvənd icad ediləndən sonra hansı vəziyyət olacaq? Bunu heç kim bilmir. Birincisi, bu peyvənd nə dərəcədə səmərəli olacaq? İndi testdən keçir. Sonra kasıb ölkələrin ona əli çatacaq, yoxsa yox? O, pullamı satılacaq, yaxud da ki, Ümumdünya Səhiyyə Təşkilatı onu paylayacaq? Yoxsa ki, zəngin ölkələr bundan istifadə edib öz əhalisinin canını qurtaracaq, amma kasıb ölkələrdəki insanlar öləcək? Bu, dözülməzdir. Bütün bu məsələlər vahid bir yanaşma tələb edir. Hətta ölkələr BMT Baş Assambleyasında vahid bir fikrə gəlməsələr belə, biz bu məsələni qaldırmalıyıq. Biz dünya birliyinin məsuliyyətli ölkəsi kimi bu məsələni qaldırırıq. Ona görə Ermənistanın bu addımı qətiyyən başadüşülən deyil”.

“Bildiyiniz kimi, bu təşəbbüsün reallaşması üçün bizə 97 səs lazım idi. Biz isə 130-dan çox ölkənin səsini qazandıq. Hesab edirəm ki, burada iki əsas amil öz rolunu göstərdi - bu mövzunun aktuallığı və beynəlxalq müstəvidə Azərbaycana olan dəstək və rəğbət. Biz bu rəğbəti uzun illər ardıcıl fəaliyyət hesabına, prinsipial, müstəqil siyasətimiz sayəsində qazanmışıq”, - Prezident İlham Əliyev vurğulayıb.

Azərbaycan Prezidenti diqqətə çatdırıb ki, biz müstəqil siyasət aparırıq və bizim siyasətimizə heç bir kənar qüvvə təsir edə bilməz: “Müxtəlif məqamlarda bunu dəfələrlə nümayiş etdirmişik. Ona görə bu gün Azərbaycana olan rəğbət doğrudan da ən yüksək səviyyədədir. Biz doqquz il bundan əvvəl 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilmişik. Bildirməliyəm ki, o vaxt bizdən əvvəl Ermənistan namizədliyini vermişdi. Ancaq görəndə ki, biz namizədliyimizi verdik, bizim qarşımızda aciz olduqlarını başa düşdülər və namizədliklərini sakitcə geri götürdülər - yəni, o diplomatik döyüş arenasından qaçdılar. Ondan beş il sonra döyüş meydanından qaçdılar və beləliklə, Azərbaycan işğal edilmiş torpaqların bir hissəsini işğalçılardan azad etdi. Ona görə bu, 10 ildən sonra yenidən bizə verilən böyük beynəlxalq dəstəkdir. Mən öz ölkəmizi heç kimlə müqayisə etmək istəmirəm. Amma hesab etmirəm ki, bir çox ölkələr BMT-də bu qədər dəstək qazana bilər. Bu, yenə də bizim dürüstlüyümüzün, sözümüzə əməl etməyimizin nəticəsidir. Mən dəfələrlə demişəm, bizim sözümüz imzamız qədər təsirlidir və bunun təsiri eynidir. Biz sözümüzü tutan ölkəyik.

O ki qaldı, Ermənistana, əslində, onlar özlərini çox gülünc vəziyyətə qoydular. Bizim təşəbbüsümüzü 130-dan çox ölkə rəsmən dəstəklədi, özü də fərdi qaydada. Baxmayaraq ki, Qoşulmama Hərəkatı bütövlükdə buna dəstək vermişdi, yenə də bütün ölkələr fərdi qaydada ya bizə, ya da ki, BMT-yə məktublarla bu haqda məlumat verdilər. Bir neçə ölkə səssiz qaldı. Yəni, onlar, sadəcə olaraq, buna reaksiya vermədilər. Yeganə ölkə - Ermənistan bunun əleyhinə çıxıb. Ermənistanın BMT-dəki səfiri çox qəribə bir məktub ünvanlamışdır ki, onlar bunun əleyhinədirlər”.

Heç kim qanundan üstün deyil - istər yerli, istər xarici şirkət, istər yerli vətəndaş, istər xarici vətəndaş olsun, fərq etmir, biz xalqımızı qorumalıyıq, biz xalqımızın sağlamlığını qorumalıyıq”

“Bəzi hallarda karantin rejimini pozanlara qarşı sərt addımlar atmağa məcbur oluruq. Ancaq onlar da öz məsuliyyətini dərk etməlidirlər. Bütün qaydalar insanların, o cümlədən karantin rejimini pozanların sağlamlığının qorunmasına hesablanıb. Amma biz görürük ki, insanlar bu rejimi nümayişkaranə pozurlar”. Bu fikirləri də Prezident İlham Əliyev yerli telekanallara müsahibəsində deyib. Dövlət başçısı ötən gün “Fairmont” hotelində karantin rejiminin pozulması ilə bağlı hadisəyə də münasibət bildirib: “Dünən məşhur bir oteldə baş verən o biabırçı hadisə dözülməzdir. Ona görə, əlbəttə, Azərbaycan polisi düz edərək müdaxilə edib. Polis orqanlarına mənim tərəfimdən çox ciddi göstəriş verilibdir ki, bütün pozuntulara adekvat reaksiya verilməlidir. Heç kim qanundan üstün deyil - istər yerli, istər xarici şirkət, istər yerli vətəndaş, istər xarici vətəndaş olsun, fərq etmir, biz xalqımızı qorumalıyıq, biz xalqımızın sağlamlığını qorumalıyıq”.

“İstənilən böhranla bacara biləcəyik”

Dövlət başçısı, həmçinin bildirib ki, neftin qiyməti hətta 14 dollar da olsa, biz ayaqda duracağıq: “Əgər neftin qiyməti uzun müddət aşağı səviyyədə olarsa, biz istər-istəməz investisiya xərclərimizi azaltmalı olacağıq. elə olan halda işsizlik artacaq. Biz məcbur olub sosial xərcləri ixtisar edəcəyik və insanlar bundan əziyyət çəkəcəklər. Hesab edirəm ki, bu gün neftin qiymətinin düşməsinə sevinən bir Ermənistandır, bir də özünü müxalifət adlandıran antimilli şura. Çünki hər ikisi Azərbaycan dövlətçiliyinə düşmənçilik hissləri ilə yaşayır. Bunu Azərbaycan xalqı bilməlidir. Amma mən demişəm, neftin qiyməti hətta 14 dollar da olsa, biz ayaqda duracağıq. Çünki biz son illər ərzində o qədər böyük iqtisadi-maliyyə potensialı yaratmışıq ki, istənilən böhranla bacara biləcəyik”.

Göründüyü kimi, dövlət başçısının yerli televiziya kanallarına verdiyi müsahibəsində birn daha göstədi ki, koronavirusla mübarizədə bütün imkanları səfərbər edilir. Azərbaycan dövləti bütün gücünü ölkə vətəndaşlarının sağlamlığının qorunmasına, onların sosial rifahının yaxşılaşdırılmasına yönəldib. Dir sözlə, görülən tədbirlər, aparılan mübarizə Azərbaycanın bu sınaqdan da az itki ilə çıxacağını deməyə əsas verir. Dövlətimizin başçısının dediyi kimi, biz birlikdə güclüyük!”

**RƏFİQƏ KAMALQIZI**

# Mehriban Əliyeva şəhid ailələrinin ev probleminin həlli ilə bağlı göstəriş verib









***2016-cı ilin Aprel döyüşlərində şəhid olmuş gizirlər Adil Adilzadənin və Teymur Qasımovun Mingəçevirdə yaşayan ailə üzvlərinin mənzil şəraitlərinin yaxşılaşdırılması ilə bağlı müraciətə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva tərəfindən dərhal müsbət münasibət bildirilib.***

Bu barədə AZƏRTAC-a “Zəfər” Şəhid Ailələrinə Dəstək İctimai Birliyindən məlumat verilib. “Zəfər” Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin üzvü olan hər iki ailə uzun müddətdir ki, çətin şəraitli, qəzalı vəziyyətdə olan evlərdə yaşayırdılar. Qəza vəziyyətində olan evlərinin təmiri ilə əlaqədar İctimai Birliyə ünvanlanmış müraciətlə bağlı təşkilat tərəfindən Heydər Əliyev Fondunun rəhbərliyinə məlumat verilib.

Fondun prezidenti Mehriban xanım Əliyeva şəhid ailələrinin qəzalı vəziyyətdə olan evlərinin əvəzinə bütün məişət təminatı ilə birlikdə yeni fərdi yaşayış sahəsinin tikilib təhvil verilməsinə dair göstəriş verib. Ən qısa zamanda yeni fərdi yaşayış evləri tikilərək hər iki şəhid ailəsinə təhvil veriləcək.

Mehriban Əliyevanın bu addımı bir daha sübut edir ki, ölkəmizdə koronavirus pandemiyasına qarşı mübarizə aparılan bir dövrdə heç bir sosial layihə diqqətdən kənarda qalmayıb. Şəhid ailələrinin sosial-məişət problemləri ən yüksək səviyyədə həllini tapır.

Hər bir şəhid ailəsi qəhrəmanlarımızın bizlərə əmanətidir. Hər kəs bu əmanətə hörmət etməyə, qayğı göstərməyə çalışmalıdır. Bizlərə ən mükəmməl örnək Mehriban xanımdır. “Zəfər” Şəhid Ailələrinə Dəstək İctimai Birliyi göstərilən diqqət və qayğıya görə şəhid ailələri adından Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya təşəkkür edir.

# Prezident İlham Əliyevin Nazirlər Kabineti yanında Operativ Qərargaha göstərişinə uyğun olaraq COVID-19 sahəsində çalışan bir qrup xarici mütəxəssis Azərbaycana gəlib







***Prezident İlham Əliyevin Nazirlər Kabineti yanında Operativ Qərargaha göstərişinə uyğun olaraq yeni növ koronavirus (COVID-19) sahəsində çalışan bir qrup xarici mütəxəssis Azərbaycana gəlib.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, COVID-19 infeksiyasının geniş yayılmasının qarşısının alınması istiqamətindəki tədbirlər çərçivəsində Rusiya və Türkiyədən gələn infeksion xəstəliklər üzrə mütəxəssislər, reanimotoloq və pulmonoloqlar hazırda Operativ Qərargahın tibbi heyəti ilə görüşlər keçirir, COVID-19 pandemiyasına qarşı görülən tədbirlər sahəsində təcrübə mübadiləsi aparılır. Türkiyə Respublikasının Səhiyyə Nazirliyinin COVID-19 üzrə elmi heyətinin üzvləri, eləcə də Rusiya və Türkiyədən olan yüksəkixtisaslı həkimlər xüsusi rejimli xəstəxanalarda olacaq, xəstəliyin qarşısının alınması üçün yerli mütəxəssislərlə birgə müalicə və profilaktika sahəsində çalışacaqlar.

# Həsən Ruhani: Çabahar limanından nə qədər çox yük daşınarsa, Azərbaycan bir o qədər tranzit gəlirləri əldə edər

***Çabahar limanının yenidən qurulması üçün cəlb olunan sərmayənin nəticəsində limanın yük aşırma imkanı 2,5 milyondan 8,5 milyon tona yüksəlib. AZƏRTAC xəbər verir ki, bu sözləri İran Prezidenti Həsən Ruhani iyulun 7-də Nazirlər Kabinetinin iclasında çıxışı zamanı deyib. O bildirib ki, Hind okeanı sahilində yerləşən Çabahar şəhərindən İranın mərkəzi vilayətlərinə dəmir yolunun çəkilişi isə Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinə böyük töhfə olacaq. Bu yol Hind okeanı ilə Qafqaz və Orta Asiya ölkələrini, Rusiyanı, Çini və Avropa qitəsini birləşdirəcək.***




İran Prezidenti Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizini ümummilli layihə adlandırıb və beynəlxalq əhəmiyyətini qeyd edib. Nəzərə çatdırıb ki, bu layihə ölkəsinin qonşu dövlətlərə iqtisadi əlaqələrini daha da inkişaf etdirəcək: "Azərbaycanın da Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin formalaşmasında iştirakını nəzərə alaraq deyə bilərik ki, Çabahardan İranın mərkəzi vilayətlərinə çəkiləcək dəmir yolu yaxın gələcəkdə Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yoluna birləşəcək. Cənub Şərqi Asiya ölkələrindən Rusiya və Avropaya daşınan yüklər İranın Çabahar limanına daxil olacaq ki, buradan da Qəzvin-Rəşt-Astara(İran)-Astara(Azərbaycan) dəmir yolu ilə Azərbaycan ərazisindən tranzit olaraq daşınacaq".

Prezident Həsən Ruhaninin sözlərinə görə, limanın yük aşırma imkanının 2,5 milyondan 8,5 milyona yüksəldilməsi heç də təsadüfi xarakter daşımır. Eləcə də Hindistan və Çinin bu limana maraq göstərməsi və 200 milyon dollar həcmində Çabahara sərmayə yatırmaları da təsadüfi deyil. Hindistanın Mumbay limanı Cənub Şərqi Asiyada ən böyük beynəlxalq limandır. Regionun bütün ölkələri Avropa ilə ticarət əlaqələrini bu liman vasitəsilə həyata keçirirlər. Yüklər Mumbay limanına cəmləşərək gəmilərlə Çabahara, buradan da yuxarıda qeyd etdiyimiz kimi Qəzvin-Rəşt-Astara dəmir yolu ilə Rusiya və Avropaya daşınacaq. Buna görə də Hindistan Çabahara sərmayə yatırmaqla yük aşırımını yüksəldib ki, məsafəni və daşıma xərclərini azaltsın. Məsafənin və daşıma xərcinin azalması isə digər dövlətlərin yükləri Avropaya məhz Çabahardan göndərməsi marağını artırır. Beləliklə, İranın Çabahar limanından Rusiya və Avropaya nə qədər çox yük daşınarsa, Azərbaycana da bir o qədər çox tranzit gəlir daxil olar.

# "Azərbaycan Prezidentinin səsləndirdiyi fikirlər Minsk qrupuna öz vəzifələrini yerinə yetirmələri üçün bir çağırışdır"

***Iyulun 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Xətai rayonunda Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli hospitalının açılışında iştirak etdilər. Hadisənin özü özlüyündə olduqca əhəmiyyətli və aktualdır. Çünki nəticə etibarilə söhbət ümummilli təhlükəsizliyimizdən gedir və açılan yeni müəssisə məhz buna xidmət edəcək.***



Azərbaycan Prezidenti hospitalın açılışından sonra milli televiziya kanallarımıza verdiyi müsahibəsində bir sıra elə ciddi və aktual məsələlər də toxundu ki, onların hər biri haqqında ayrıca danışmaq, təhlil aparmaq və ictimai yaddaşımız üçün bəzi ümumiləşdirmələr etməliyik.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirib.

Deputat deyib: "Əgər məzmun etibarilə qruplaşdırmağa çalışsaq birinci məsələ koronavirus pandemiyasına qarşı Azərbaycan dövlətinin və xalqının birlikdə verdiyi mücadilədir. İkinci məsələ isə Azərbaycanın bu və ya digər məsələlərlə bağlı qurduğu beynəlxalq əməkdaşlıq, ölkəmizin beynəlxalq münasibətlər sistemində yeri və rolu ilə bağlıdır. Üçüncü isə Prezidentin məhz bu kontekstə ilk baxışda ötəri kimi toxunduğu ancaq əslində isə strateji məsələ olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin həlli ilə bağlı səsləndirdiyi fikirlərdir, verdiyi olduqca ciddi mesajlardır. Ona görə də xüsusi olaraq bu məsələnin üzərində dayanıb bir sıra məqamlara diqqət yetirmək lazımdır.

Əvvəla bir daha aydın oldu ki, problemi həll etmək üçün BMT Təhlükəsizlik Şurasından xüsusi mandat almış ATƏT-in Minsk qrupu və onun həmsədrləri problemin həlli üçün lazımi səylər göstərməyiblər və ona görə də bu günə qədər problem həll edilməmiş qalır. İkincisi Minsk qrupunun xüsusi müşahidə missiyası işğalçı ölkənin qeyri-qanuni məskunlaşma aparmaq siyasətinə göz yumur, belə faktları hazırladıqları hesabata salmırlar. Ona görə Azərbaycan Prezidenti bildirdi ki, ATƏT-in axırıncı faktaraşdırıcı missiyası işğal olunmuş torpaqlarda 10 il bundan əvvəl olub. Son bir neçə il ərzində biz onlara təkidlə deyirik ki, yeni missiya getməlidir".

H.Babaoğlu vurğulayıb ki, bu 10 il ərzində Ermənistan Suriyadan və başqa yerlərdən erməniləri oraya gətirib, onları zorla saxlayır. Bizim şəhərlərimizin tarixi adlarını dəyişdirir, işğal edilmiş torpaqlarda kilsələr tikir. Yəni, sabah deyəcək ki, bu, erməni torpağıdır. Dəfələrlə demişik onlara. Reaksiya var? Yoxdur. Yəni,10 il ərzində faktaraşdırıcı missiyanı göndərmək olmaz? İstəmirlər. Düşünürəm ki, Azərbaycan Prezidentinin səsləndirdiyi bu fikirlər əslində Ermənistana xəbərdarlıq olmaqla ATƏT-in Minsk qrupuna da öz vəzifələrini yerinə yetirmələri üçün bir çağırışdır və hər iki tərəf bu məsələni ciddiyə almalıdır. Başqa bir mühüm ismarıc isə ondan ibarət idi ki, danışıqların imitasiya edilməsi artıq mümkün deyil, Azərbaycan artıq konkret mövqe tələb edir. "Çünki öz torpaqlarının daha artıq işğal altında qalmasını qəbul edə bilməz. Bu məsələyə toxunan Prezident İlham Əliyev bildirdi ki, Ermənistanın baş naziri deyir "Qarabağ Ermənistandır". Buna mən cavab verirəm və lazımi cavab verirəm. Amma Minsk qrupu niyə buna cavab vermir? Niyə cavab vermir ki, bu ifadə, əslində, Minsk qrupunun formalaşdırdığı danışıqların mahiyyətini alt-üst edir, danışıqları faktiki olaraq əhəmiyyətsiz edir. Minsk qrupunun həmsədrləri buna adekvat reaksiya veriblər? Verməyiblər. Ermənistan tərəfi iki ildir danışıqların formatını dəyişmək istəyir və bəyan edir ki, Azərbaycan qondarma Dağlıq Qarabağın qondarma, saxta, dırnaqarası liderləri ilə danışıqlar aparmalıdır. Buna adekvat cavab verilir? Verilmir. Bəli, bəzi mücərrəd sözlərlə, nala-mıxa vurmaqla cavab verilir. Axı, o dövr keçibdir. Biz aydınlıq tələb edirik. Bu fikirlərdəki əsas məzmun, "nala -mıxa" vurmaq dövrünün artıq arxada qalması ilə bağlı olan fikirdir. Azərbaycan artıq aydınlıq tələb edir. Doğrudan da Minsk qrupu məsələyə aydınlıq gətirib konkret mövqe ortaya qoymalıdır. Belə loyallıq və qeyri-müəyyənlik çox da davam edə bilməz. Ona görə də Azərbaycan Prezidentinin səsləndirdiyi haqlı, beynəlxalq hüquqa əsaslanan fikirlərə Minsk qrupu cavab verib öz mövqeyini izah etməli, nə üçün problemin bu günədək həll edilmədiyinə aydınlıq gətirməlidir. Axı 1994-cü ildə atəşkəslə bağlı razılıq əldə edilərkən əsas şərt o idi ki, Minsk qrupu sülh yolu ilə problemin həllinə nail olmağa çalışacaq. İndi ya bu problem nəhayət sülh yolu ilə həll edilməli, ya da Azərbaycan ərazi bütövlüyünü bərpa etmək üçün digər məqbul variantlara əl atmalıdır. Ona görə də Azərbaycan Prezidenti bir daha Aprel döyüşlərini xatırlatmaqla, Milli Ordumuzun nəyə qadir olduğunu yada salmış oldu. Prezident bir daha bildirdi ki, biz haqlı olmağımızı həm beynəlxalq arenalarda göstərmişik, həm də döyüş meydanında və heç kimin Aprel döyüşləri yadından çıxmasın. Düşünürəm ki, Minsk qrupu vəziyyət daha da gərginləşmədən öz missiyasını yerinə yetirməklə bağlı konkret addımlar atmalı, səsləndirilən fikirlərə tezliklə öz münasibətini bildirməlidir", - deyə Hikmət Babaoğlu vurğulayıb.

# Sevinc Fətəliyeva: "Həmsədrlər görüntü xatirinə vasitəçilik etməməlidir"

***"Dünya ictimaiyyətinə yaxşı məlumdur ki, Ermənistan Azərbaycan torpaqlarının bir hissəsini işğal edib və uzun illərdir ki, işğalçılıq siyasətini davam etdirir. İşğal faktı nəticəsində Azərbaycanda bir milyondan çox insan öz doğma yurdlarında yaşamaq hüququndan məhrum edilib. Bu işğal siyasətinin davam etməsi qəbulolunmazdır". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva deyib.***



Sevinc Fətəliyeva bildirib ki, müəyyən dairələr Ermənistan haqqında "demokrat obrazı yaratmağa çalışır. Bu isə yolverilməzdir. Onun sözlərinə görə, Prezident İlham Əliyevin iyulun 6-da yerli televiziyalara müsahibəsində qeyd etdiyi kimi, Ermənistanda insan haqlarının və demokratiyanın pozulması bu günün işi deyil: "Dövlətimizin başçısı bildirib ki, Ermənistanda heç vaxt demokratiya olmayıb. Ermənistan hələ müstəqil ölkə kimi formalaşandan dərhal sonra öz əsl xislətini göstərdi. Xocalı soyqırımını törədən faşistlər demokrat ola bilməzlər. Başqasının torpağına göz dikən, bir milyon insanı evsiz-eşiksiz qoyan ölkə demokrat ola bilməz. Onlar bir milyon Azərbaycan vətəndaşının və Ermənistanda yaşayan azərbaycanlıların elementar insan haqlarını pozublar. Cənab Prezidentin qeyd etdiyi kimi, ermənilərə himayədarlıq edənlər, ilk növbədə, erməni lobbisi, onun pulları, ondan sonra Ermənistan hökumətinin Avropada çirkin lobbiçilik fəaliyyəti onları həmişə bu tənqiddən qoruyurdu. Əslində, bu, lobbiçilik fəaliyyəti deyil, bu, korrupsiya fəaliyyətidir.

Ermənistanın qeyri-konstruktivliyi o həddədir ki, Azərbaycan Prezidentinin koronavirusla mübarizəyə həsr olunmuş BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi təşəbbüsünə qarşı çıxıb. Dövlətimizin başçısının dediyi kimi, bunun əsas səbəbi Ermənistanda hökm sürən və dövlət tərəfindən təbliğ edilən Azərbaycanafobiyadır, Azərbaycan dövlətinə, Azərbaycan xalqına nifrətin təzahürüdür. Ancaq Ermənistan özü-özünü çox pis vəziyyətə qoydu, özünü dünyadan təcrid etdi. Çünki bu təşəbbüsün əleyhinə çıxmaq ağılsızlıqdır və qeyri-rasional düşüncənin məhsuludur".

Millət vəkili həmçinin deyib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə BMT-nin Baş katibi Antonio Quterreşin arasında telefon danışığında da dövlətimizin başçısının təşəbblüsü yüksək dəyərləndirilib. Belə ki, telefon danışığı əsnasında Prezident İlham Əliyev bildirib ki, Azərbaycan COVID-19 pandemiyasına qarşı mübarizədə Baş katibin və BMT-nin səylərini, o cümlədən çoxtərəfli əməkdaşlığı dəstəkləyir. Dövlətimizin başçısı BMT Baş Assambleyasının COVID-19-a həsr olunmuş xüsusi sessiyasının çağırılmasında Baş katibin liderliyinin mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

BMT-nin Baş katibi Antonio Quterreş bir daha BMT Baş Assambleyasının COVID-19-a həsr olunmuş xüsusi sessiyasının keçirilməsi təşəbbüsünü dəstəklədiyini qeyd edərək, texniki-logistik məsələlərin həlli ilə əlaqədar BMT-nin Azərbaycan tərəfi ilə birlikdə işləməyə hazır olduğunu deyib. Prezident İlham Əliyev və Baş katib Antonio Quterreş telefon danışığında əminliklərini ifadə ediblər ki, keçiriləcək xüsusi sessiya COVID-19 pandemiyasına qarşı mübarizədə önəmli addım olacaq. Bu faktın özü Azərbaycanın təşəbbüsünə qarşı çıxanlara tutarlı cavabdır.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə gəlincə, S.Fətəliyeva qeyd edib ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Onun sözlərinə görə, Azərbaycanın bu məsələdə prinsipial mövqeyi dəyişməzdir.

"Cənab Prezidentin qeyd etdiyi kimi, bizim mövqeyimiz haqq-ədalət mövqeyidir, həm tarixi ədalətə, eyni zamanda, beynəlxalq hüquqa əsaslanır. Ona görə də mövqeyimizdə hər hansı bir dəyişiklik mümkün deyil. Dövlət başçısı bir daha bəyan edib ki, münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Heç vaxt Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına icazə verilməyəcək. İşğal edilmiş bütün torpaqlar işğalçılardan azad edilməli, Azərbaycan vətəndaşları öz dədə-baba torpaqlarına qayıtmalıdırlar. Azərbaycan danışıqlar prosesinin imitasiya xatirinə aparılmasını qəbul etmir. Danışıqlar mahiyyəti üzrə aparılmalıdır. Cənab Prezidentin dediyi kimi, əks halda, mənasız danışıqların aparılmasına heç bir ehtiyac qalmayacaq. ATƏT-in Minsk qrupunun həmsədrləri bütün bunlardan nəticə çıxarmalı, görüntü xatirinə vasitəçilik etməməli, işğalçı Ermənistanı öz adı ilə çağırmalıdır"- deyə, millət vəkili vurğulayıb.

# Miqran Akobyan: "Paşinyan rejiminin hər günü Ermənistan və Qarabağ üçün təhlükədir"

***Paşinyan rejiminin mövcudluğunun hər günü Ermənistanın və Dağlıq Qarabağın fiziki təhlükəsizliyi üçün ciddi təhlükə yaradır. SİA Ermənistana məxsus tert.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə sosial və siyasi fəal Miqran Akobyan öz Facebook səhifəsində yazıb. O, xüsusilə vurğulayıb ki, artıq tam açıq danışmaq zamanıdır.***



"Açıq danışmağın vaxtı çatıb. Rusiyanın Cənubi Qafqazda hərbi-siyasi mövcudluğu Ermənistanın və Dağlıq Qarabağın fiziki təhlükəsizliyinin yeganə təminatçısıdır. Alternativi isə, bütün bu nəticələrə səbəb olan Türklərin bölgəyə hücumudur. Yalnız mütləq bir axmaq başa düşə bilməz ki, Rusiyanın bölgədəki varlığına alternativ yeni bir erməni tələfatları zəmanətli perspektivi olan türk varlığıdır.

Etiraf etmək lazımdır ki, Rusiya hərbi-siyasi mövcudluğunu heç də ermənilərin "qara gözlərinə görə" qorumur. Ermənistanda bir rus hərbi qrupu var. Təəssüf ki, Ermənistanın hazırkı rejimi mahiyyət etibarilə anti-Rusiyadır. İllər keçdikcə bu insanlar Russophobia ilə proqramlaşdırılmışdır və Russofobianın "proqram təminatından" imtina edə bilməzlər, imtina da etməzlər. Qorxsalar da, qorxunc addımlarla "irəliləməyə" başlasalar da, ortadakı anti-Rusiya mühitindən dövlət aparatına keçənlərin problemin həllini tapdıqlarını və Ermənistan-Rusiya hərbi-siyasi ittifaqını tədricən sarsıtdıqları açıq-aşkar görünür", deyə siyasi fəal öz səhifəsində etiraf edir. O, xüsusilə qeyd edir ki, Moskva Nikol Paşinyan rejiminə etimad göstərməyincə, hər şey daha da pisləşəcək. Həmçinin vurğulayır ki, etibar ediləcəyi də ağıla sığan deyil, çünki o ruslar qarşısında etibarsız bir insana çevrilib.

# Azərbaycan Prezidentinin növbəti böyük uğuru

***“Bütün Dünyanı bürümüş Koronavirus Pandemiyası ilə mübarizə aparılan bir dövürdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu məsələ ilə bağlı BMT-nin Baş Assambleyasının Xüsusi Sesiyasının çağrılması ilə bağlı təşəbbüsü böyük tarixi əhəmiyyət daşıyır. Pandemiya bütün dünya insanlarının həyatını təhlükə altına qoyan ciddi sağlamlıq problemlərini yaratmaqla bərabər, dünyada uzun müddət hiss olunacaq qlobal sosial-iqtisadi və hümanitar böhrana səbəb olmuşdur. Dünya müharibələri ilə müqayisə olunan bu Pandemiya şəraitində özünütəcrid və ayrı-ayrılıqda bu böhrandan çıxmaq siyasəti əvəzinə qlobal həmrəyliyə böyük ehtiyac var”. Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Rauf Əliyev deyib.***



Millət vəkili bildirib ki, bu məsələ ilə bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev BMT-nin Baş Katibi cənab Antonio Quterreeşə bu gün telefonla zəng edib: “Telefon danışığı zamanı cənab Prezident İlham Əliyev bildirib ki, Azərbaycan COVİD-19 pandemiyasına qarşı mübarizədə Baş Katibin və BMT-nin səylərini, o cümlədən çoxtərəfli əməkdaşlığı dəstəkləyir. Prezident İlham Əliyev və Baş Katib cənab Antonio Quterreş telefon danışığında əminliklərini ifadə edərək bildiriblər ki, keçiriləcək Xüsusi Sesiya COVİD-19 Pandemiyasına qarşı mübarizədə önəmli addım olacaq.

Azərbaycan Respublikası COVİD-19-a qarşı mübarizədə qlobal həmrəylik nümunəsi kimi Ümumdünya Səhiyyə Təşkilatına könüllü iyanə ayırıb, 30-dan çox ölkəyə hümanitar yardım göstərib. Bütün dünyanı bürüyən Pandemiyanın davam etməsi bir daha göstərir ki, dünya ölkələrinin dövlət və hökumət başçıları səviyyəsində BMT Baş Assembleyasının Xüsusi Sesiyası çərçivəsində bir araya gəlməsinə, COVİD-19 bəlasından çıxış yollarının müzakirə edilməsinə və həlli yollarının tapılmasına böyük ehtiyac vardır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Qoşulmama Hərəkatının onlayn Zirvə Görüşündə çıxışı zamanı qlobal həmrəyliyin nümunəsi kimi Pandemiya ilə mübarizə məqsədilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sesiyanın keçirilməsi təklifi ilə çıxış etmişdir. BMT-nin 130-a qədər üzv dövləti tərəfindən, BMT-nin Baş Katibi cənab Antonio Quterreş tərəfindən cənab Prezident İlham Əliyevin BMT Baş Assambleyasının Xüsusi Sesiyasının keçirilməsi barədə təşəbbüsünün dəstəklənməsi, beynəlxalq ictimayyət tərəfindən ölkəmizə olan böyük etimadın, Azərbaycanın ildən-ilə artan beynəlxalq nüfuzunun göstəricisidir.

Bu eyni zamanda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Beynəlxalq aləmdə əldə etdiyi növbəti böyük uğurudur”.

***İnam Hacıyev***

# Nəfəs alətləri orkestrinin bədii rəhbərinin külli miqdarda rüşvət almasına dair istintaq davam edir



Ölkəmizdə həyata keçirilən davamlı iqtisadi inkişafın mühüm şərtlərindən biri kimi şəffaflığın və maliyyə intizamının təmin olunması, aparılan iqtisadi islahatların korrupsiyaya qarşı mübarizə tədbirləri ilə dəstəklənməsi prokurorluq orqanları tərəfindən daim diqqət mərkəzində saxlanılmaqla korrupsiya hüquqpozmalarına qarşı kəsərli və ardıcıl mübarizə tədbirləri davam etdirilir.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həyata keçirilməkdə olan belə tədbirlərin davamı kimi, Lütfi Qədirovun 2010-2020-ci illərdə Azərbaycan dövlət nəfəs alətləri orkestrinin bədii rəhbəri işləyərkən xidməti vəzifələrinin icrası ilə əlaqədar tabeçiliyində olan əməkdaşlara ümumi himayədarlıq və laqeydlik müqabilində onlardan külli miqdarda rüşvət almasına dair kifayət qədər dəlillər aşkarlandığından Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlanıb.

İstintaqla Lütfi Qədirovun orkestrin hazırda şəxsiyyətləri istintaqla araşdırılan digər vəzifəli şəxsləri ilə cinayətkar əlaqəyə girib, aralarındakı ümumi cinayətkar niyyətə əsasən korrupsiya sxemlərindən istifadə etməklə, orkestrdə müxtəlif vəzifələrdə fəaliyyət göstərən ayrı-ayrı şəxslərə 2017-ci ilin yanvar ayından 2020-ci ilin iyulunadək olan müddət ərzində işə gəlməyərək əmək funksiyalarını yerinə yetirməmələrinə baxmayaraq, onlarla bağlanmış əmək müqavilələrinə xitam verilməyib xidmət illəri üzrə əmək stajının hesablanması müqabilində əməkdaşların hər biri üçün ayrılmış plastik kart hesablarına köçürülmüş əməkhaqqının 85-90 faiz həcmini təşkil edən ümumilikdə 54 min manatdan artıq məbləğdə pul vəsaitini özü və qabaqcadan əlbir olduğu şəxslər üçün rüşvət qismində almasına əsaslı şübhələr müəyyən edilib.

Həmin qanunsuz əməllərə görə Lütfi Qədirova Cinayət Məcəlləsinin 311.3-cü (qabaqcadan əlbir olaraq külli miqdarda təkrar rüşvət alma) maddəsi ilə ittiham elan olunaraq barəsində Binəqədi Rayon Məhkəməsinin qərarı ilə dörd ay müddətinə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə digər təqsirli şəxslərin dairəsinin tam müəyyənləşdirilərək məsuliyyətə cəlb olunması, o cümlədən cinayətin törədilməsində bu və ya digər formada iştirak etmiş şəxslərin aşkarlanması istiqamətində zəruri və təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri davam etdirilir.

## 15 yaşında itirdiyi pul qabını 73 yaşında tapdı




ABŞ-da Kaliforniya ştatının Loday şəhərinin sakini Donna Braun 15 yaşında itirdiyi pul qabını 58 il sonra tapıb. Trend-in məlumatına görə, 1962-ci ildə baş verib. O, kinoteatrda olarkən pul qabını itirib. Bir müddət axtarışlar nəticə vermədikdən sonra həmin əşya unudulub. D.Braunun sözlərinə görə, pul qabında fotoşəkillər, sənədlər və iş icazəsi olub. Həmin pul qabını kinoteatrın yeni sahibi binanı təmir etdirərkən tapıb. Orada olan fotoşəkillər sosial şəbəkədə yerləşdiriləndən sonra qadın üzə çıxıb.

# Kassirin səhvi pensiyaçını milyonçu etdi




Kanadalı pensiyaçı Maykl Batt kassir qadının səhvi sayəsində milyonçu olub. AZƏRTAC CTV News telekanalına istinadla xəbər verir ki, 82 yaşlı Kombermer sakini “Lotto 6/49” lotereya bileti almaq istəyib, lakin kassir səhvən ona “Lotto Max” bileti verib. Nəticədə pensiyaçı 1 milyon Kanada dolları həcmində uduşun sahibi olub. O, uduşu sənədləşdirərkən kassirə bəxşiş verdiyini deyib. “Əgər kassir səhvə yol verməsəydi, milyonu qazana bilməyəcəkdim”, - deyə pensiyaçı etiraf edib. Eyni zamanda, məlum olub ki, Maykl Battın qardaşı da 1980-ci illərin sonlarında lotereyada 3,5 milyon Kanada dolları udubmuş.

# Almaniya: “ABŞ-ın ÜST-dən çıxması beynəlxalq əməkdaşlığa zərbədir”




ABŞ-ın Ümumdünya Səhiyyə Təşkilatından (ÜST) çıxması koronavirus pandemiyası şəraitində fəaliyyəti daha vacib olan beynəlxalq əməkdaşlıq sisteminə zərbədir. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, bu barədə Almaniya Nazirlər Kabinetinin nümayəndəsi Martin Fits jurnalistlər üçün təşkil olunan brifinqdə deyib.

“Almaniya hökuməti Ümumdünya Səhiyyə Təşkilatının fəaliyyətini yüksək qiymətləndirir. Bu, əsasən də hazırkı dövrdə daha vacibdir. Biz ABŞ-ın ÜST-dən çıxmasını beynəlxalq əməkdaşlığa zərbə hesab edirik. Bütün dünyada infeksiyanın yayılması beynəlxalq əməkdaşlığa daha çox ehtiyacın olduğunu göstərir”, - deyə Almaniya hökumətinin nümayəndəsi bildirib. İyulun 7-də BMT Baş katibinin rəsmi nümayəndəsi Stefan Düjarrik ABŞ-ın 2021-ci il iyulun 6-da Ümumdünya Səhiyyə Təşkilatından çıxacağı barədə Antonio Quterreşə bildiriş göndərdiyi barədə məlumat verib.

# Tramp: ABŞ-da koronavirusla bağlı vəziyyət bir aya yaxşılaşacaq



ABŞ-da koronavirusla bağlı vəziyyət göstərilən səylər nəticəsində bir ay ərzində yaxşılaşacaq. Trend-in məlumatına görə, bunu ölkə Prezidenti Donald Tramp mətbuata müsahibəsində deyib. O, ölkədə pandemiya ilə mübarizənin səmərəli davam etdiyini deyib: “Hesab edirəm ki, iki, üç, dörd həftə sonra biz növbəti dəfə görüşəndə, hər kəs daha yaxşı formada olacaq”.

D.Tramp etiraf edib ki, pandemiya ilə bağlı məhdudiyyətər yumşaldıldıqdan sonra bir çox ştatlarda, o cümlədən Kaliforniya və Floridada yoluxma sayında kəskin artım müşahidə olunub. Qeyd edək ki, bu günədək ABŞ-da 3 milyona yaxın şəxs koronavirusa yoluxub, 131 mindən çox xəstə həyatını itirib.

# Döyüş ruhu, qələbə əzmi və sağlam mənəvi-psixoloji




*Ona görə bütün bu amillər - orduya, zabitə, əsgərə qayğı, məişət, xidmət şəraitinin yaxşılaşdırılması və ordumuzun silah-sursat, texnika ilə təchizatı, bir də əlbəttə ki, döyüş qabiliyyətinin artırılması, bax, bunlar bu əsas amillərdir. Əlbəttə ki, vətənpərvərlik. Ona görə hər bir hərbi hissədə ideoloji tərbiyə yüksək səviyyədə təşkil edilməlidir. Buna bütün rəhbər heyət cavabdehlik daşıyır ki, bizim gənclərimiz milli ruhda, vətənpərvərlik ruhunda böyüsünlər, müstəqilliyin qədrini bilsinlər...*

Ona görə mən sizə tapşırıram, bütün hərbi hissələrdə ideoloji vəziyyətə xüsusi əhəmiyyət verilməlidir. Ölkəmizin tarixi - həm qədim tarixi, həm də müasir tarixi ilə əlaqədar hər bir əsgərdə, zabitdə dolğun təəssürat olmalıdır.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti,**
**Silahlı Qüvvələrin Ali Baş Komandanı**



Tarixdə döyüşün taleyinin, vuruşda hər şeyin güclə, sayla, çoxlu silahla həll olunduğunu düşünən sərkərdələr mütləq sonunda məğlubiyyətin ağrı-acısını artıqlaması ilə dadıblar. Əgər döyüşdə həyatını, canını itirəcəyini bilən əsgərin döyüş ruhu, mənəvi-psixoloji durumu, ideoloji hazırlığı, psixoloji dözümlülüyü yetərincə deyilsə, yuxarıda sadaladıqlarımız fiziki gücün, say çoxluğunun, dağıdıcı silahın heç bir əhəmiyyəti qalmır. Çünki döyüşə atılaraq Vətəni qorumaq naminə düşmənə qalib gəlməyi qarşısına məqsəd qoyan ordunun, əsgərin ideoloji gücü, mənəvi qüdrəti silahının imkanlarından maksimum bəhrələnməyə böyük təsir edir və qarşıya qoyulan tapşırıqların uğurlu icrasında mühüm rol oynayır. Əsgərin mənəvi gücü, vətənpərvərliyi və ideoloji hazırlığı silahının vahiməsini daha güclü edir və düşmənin daha tez demoralizə olunmasına, pərən-pərən salınmasına, asan darmadağın edilməsinə imkan verir.

Bu fikirlər Müdafiə Nazirliyinin mətbuat xidmətinin əməkdaşı, hərbi jurnalist İsa İsmayılovun "Döyüş ruhu, qələbə əzmi və sağlam mənəvi-psixoloji mühitlə də silahlanan qüdrətli Azərbaycan Ordusu" sərlövhəli məqaləsində yer alıb. AZƏRTAC məqaləni təqdim edir.

Hərbi vətənpərvərlik hissi, Vətən sevgisi, el-oba təəssübkeşliyi, torpaq yanğısı qandan, gendən gələn amildir. Bu amilləri beyinlərə həkk etdirən, daşlaşdıran, qranitə döndürən isə vahid ideologiyanın ətrafında birləşmək və bu ideologiyanın arxasında səfərbər olmaqdır. Bizim üçün bu ideologiya azərbaycançılıq məfkurəsidir. Bu, harada və hansı ölkədə yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının qürur duyduğu ideologiyadır. Azərbaycançılıq ideyasının gücü, qüdrəti də məhz budur - hamımızı birləşdirmək, həmrəy, həmfikir etmək və bir amala yönəltmək.

Bir neçə dəfə, xüsusən də hərbi qulluqçularla sonuncu görüşündəki çıxışında Ali Baş Komandan hərbi vətənpərvərlik tərbiyəsindən danışıb, ideoloji işin milli-mənəvi dəyərlərimizə, tarixi ənənələrimizə istinad edərək aparılmasının əhəmiyyətini xüsusi vurğulayıb. Dövlətimizin başçısının bu istiqamətlə bağlı fikirləri, tövsiyələri Ordumuzda bir fəaliyyət proqramı olaraq qəbul edilib. Prezidentimizin bu tələblərindən irəli gələn tapşırıqların nəticəsidir ki, Azərbaycan Ordusunun uğurlarının təməlində duran vacib amillərdən biri məhz şəxsi heyətin ideoloji hazırlığının yüksək və mənəvi-psixoloji cəhətdən güclü olmasıdır. Tarix göstərir ki, həqiqətən düşməni məğlub edərək qələbənin qazanılmasında əmri icra edən döyüşçülərin ideoloji hazırlığının səviyyəsi, psixoloji durumunun vəziyyəti peşəkarlıqla, silahla və hərbi texnika ilə eyni dərəcədə əhəmiyyət kəsb edir.

Son illərdə Ordumuzda aparılan genişmiqyaslı islahatlar nəticəsində hərbçilərimizin mənəvi-psixoloji vəziyyəti, habelə hərbi-vətənpərvərlik əhval-ruhiyyəsi yüksək səviyyədədir. Şəxsi heyətin

# mühitlə də silahlanan qüdrətli Azərbaycan Ordusu

dövlətə, xalqa sıx bağlılığı heç kəsdə şübhə doğurmur. Bu gün Azərbaycan əsgəri vətənpərvər, yüksək mənəvi-psixoloji hazırlığı olan gənclərdir. Hərbi qulluqçularımız dövlətin hərtərəfli diqqət və qayğısını hər addımda hiss edən mətin əsgər və zabitlərimiz üzərinə düşən məsuliyyəti yetərincə düzgün dəyərləndirir, vətəndaşlıq borcuna, hərbi tapşırıqların icrasına şüurlu yanaşırlar.

Ali Baş Komandanın tövsiyələrinə müvafiq olaraq Azərbaycan Ordusunda bu istiqamətdə fəaliyyətlər daha da genişləndirilir. Şəxsi heyətin ideoloji, döyüş, mənəvi-psixoloji hazırlığının təkmilləşdirilməsi, hərbi intizamın möhkəmləndirilməsi də Müdafiə Nazirliyi rəhbərliyinin əsas prioritetlərindəndir. Müharibə şəraitində yaşayan bir ölkə üçün ən vacib məqamlardan biri ordunun şəxsi heyətinin və ümumiyyətlə vətəndaşların sağlam mənəvi-psixoloji duruma, ruh yüksəkliyinə, özünə inama və vətənpərvərlik hisslərinə hakim olmalarıdır. Bu gün Azərbaycan cəmiyyətində, Ordumuzda məhz belə bir əhval-ruhiyyə mövcuddur. Bütün bunların nəticəsidir ki, xalqımız Ordumuza istənilən döyüş tapşırığını yerinə yetirməyə qadir bir qüvvə olaraq böyük inam bəsləyir.





Ali Baş Komandan İlham Əliyevin, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təmas xəttində yerləşən bölmələrimizə mütəmadi səfərləri, əsgərlərimizlə keçirdikləri görüşlər hərbçilərimizi Vətəni qorumağa, işğal altındakı torpaqlarımız uğrunda hər an savaşa qalxmağa ruhlandırır. Bununla da ordumuzun güclü potensialı bizi əsas məqsədimizə - işğal edilən torpaqlarımızın azad olunmasına daha da yaxınlaşdırır. Hər bir əsgərin qayğısına qalan, onun döyüş ruhunu yüksəldən dövlət bütün imkanlarını bu istiqamətdə səfərbər edir.



Artıq bir neçə tarixi məqam Azərbaycan Ordusunun döyüş hazırlığının, ruh yüksəkliyinin, mənəvi-psixoloji durumunun və peşəkarlığının düşmən ordusundan qat-qat üstün olduğunu sübut edib.

Bu döyüş ruhunu yüksək səviyyədə saxlamaq məqsədilə Ordumuzda ümummilli liderimiz Heydər Əliyevin zəngin həyat yolu və fəaliyyəti, dövlət və ordu quruculuğu, milli şüurun dirçəlişi, milli ideologiyanın inkişafı, gənclərin hərbi vətənpərvərlik tərbiyəsi və digər sahələrdəki siyasi irsi dərindən öyrənilir və hərbçilər arasında təbliğ edilir. Ulu Öndərimiz çox gözəl bilirdi ki, ordunun mənəvi-psixoloji durumunu yüksəltmədən itkilərin yerini doldurmaq mümkün olmayacaq. Ona görə də orduda ulu öndər Heydər Əliyevin başlatdığı ilk iş məhz hərbi hissələrdə mənəvi ab-havanın sağlamlaşdırılması, şəxsi heyətin vahid komandanlıq altında idarə edilməsinə yönəldildi. Beləliklə, nəzəri və praktiki əsaslara söykənən ordu quruculuğunun formalaşması prosesi başladı. Biz indi bunun müsbət nəticələrini aydın görürük. Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi bu xətti Ali Baş Komandan İlham Əliyev çox uğurla davam etdirir. Bütün sahələrdə olduğu kimi, Azərbaycan Ordusunda da dinamik inkişaf gedir. Dövlətimizin başçısının diqqəti sayəsində əsgərin döyüş əzmi daha da artır. Döyüşçü Ali Baş Komandanını səngərdə görəndə sevinir. Prezidentimizin dəfələrlə cəbhə bölgələrinə səfərini, əsgərlərlə oturub çörək kəsməsini ən yaxşı örnək kimi göstərə bilərik.



Ali Baş Komandanımızın dövlətimizin müstəqilliyinin qorunub saxlanması, qüdrətlənməsi istiqamətində apardığı daxili və xarici siyasət, ordunun qüdrətli bir qüvvəyə çevrilməsi üçün fəaliyyəti, ərazilərimizin erməni işğalından azad olunması naminə apardığı mübarizə daim təbliğ edilir. Ali Baş Komandanın Azərbaycan Ordusunun qarşısında qoyduğu tapşırıqlar bütün şəxsi heyətə çatdırılır.

Azərbaycan Ordusunda aparılan ideoloji iş, mənəvi-psixoloji hazırlıq, şəxsi heyətdə yüksək əhval-ruhiyyə və ruh yüksəkliyini təmin etməyə yönəldilən hərbi vətənpərvərlik tədbirlərinin bir məqsədi var - işğal altında olan torpaqlarımızı düşməndən azad edərək ərazi bütövlüyümüzü təmin etmək! Heç kimin şübhəsi yoxdur ki, Azərbaycan Ordusunun şəxsi heyəti istənilən döyüş tapşırığını yerinə yetirməyə hazırdır, qadirdir və bunun üçün bütün imkanlara malikdir.

Onu da qeyd etmək yerinə düşər ki, Ordunun qarşısında duran vəzifələri uğurla yerinə yetirməsi üçün əsas şərtlərdən biri şəxsi heyətin mənəvi-psixoloji vəziyyətidir. Fərəhli haldır ki, bu gün ölkəmizdə həyata keçirilən uğurlu sosial-iqtisadi siyasətin nəticəsi olaraq xalqımızın maddi rifahına təsir edən bütün tədbirlər, eyni zamanda, Ordumuzun şəxsi heyətində də döyüş hazırlığı və mənəvi-psixoloji hazırlıqda yeni uğurlar qazanmaq üçün ruh yüksəkliyi yaratmışdır.

Aprel döyüşləri və Günnüt əməliyyatında əldə etdiyimiz uğurlar, qazandığımız qələbələr dediklərimizə gözəl nümunədir, sübutdur. Azərbaycan əsgərini düşmənin möhkəmləndirilmiş sədlərini yarmağa, hədlərini aşıb keçməyə, səngərini başına yıxmağa və torpaqlarımızı azad etmək üçün gözünü qırpmadan Vətən uğrunda ölümə yollanmağa səfərbər edən məhz yuxarıda haqqında danışdığımız müsbət amillərdir. Dağıdıcı silahlarla yanaşı, bütün müsbət xüsusiyyətlərlə - ideoloji möhkəmlik, psixoloji dözümlülük, mənəvi saflıq, döyüş ruhu, qələbə əzmi, Vətən sevgisi ilə də silahlanan Azərbaycan əsgərinin qarşısında düşmən ordusu tab gətirmədi, darmadağın edildi.

Düşmən ordusunu bizim əsgərimizdən zəif, aciz edən də məhz onun sadaladığımız müsbət ideoloji aspektlərdən anlayışsız olmasıdır. Nə üçün vuruşduğunu düzgün anlamayan, kimin üçün savaşdığını dərk etməyən erməni əsgərinin zəifliyi, qorxaqlığı döyüşdə özünü açıq-aydın büruzə verdi. Erməni əsgəri silahını atıb qaçmağa üz tutdu ki, Aprel döyüşlərində bunun da şahidi olduq. Ondan fərqli olaraq hansı amal uğrunda ölümə yollandığını şüurlu surətdə dərk edən, özündən əmin olan Azərbaycan Ordusunun bir neçə bölməsi illərlə yaşanlarla doyuzdurulan, boş vədlərlə, bəzən zorla səngərlərdə saxlanılan düşmən qüvvələrini əzdi keçdi, zəfər çaldı, qələbə qazandı, ölkəmizi sevindirdi, xalqın gözündə daha da ucaldı, dövlətimizin diqqət və qayğısını daima öz üzərində hiss etdi.

Səmimi olaraq deyə bilərik ki, bu gün Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş ruhu, qələbə əzmi və mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir. Çünki bu işlər vahid komandanlıq və müəyyən olunmuş plan əsasında azərbaycançılıq ideologiyasına söykənərək həyata keçirilir.

Hərbi qulluqçularla sonuncu görüşündə Ali Baş Komandan İlham Əliyevin hərbi qulluqçuların ideoloji hazırlığı məsələsini xüsusi vurğulaması da dövlətimizin müvafiq sahəyə verdiyi əhəmiyyətin, ayırdığı diqqətin təzahürüdür. Bu gün ordumuzda həyata keçirilən bütün tədbirlərə nəzər yetirsək tam əminliklə deyə bilərik ki, Azərbaycan Ordusunda azərbaycançılıq məfkurəsinə istinad edən, milli-mənəvi dəyərlərə söykənən, tarixi ənənələrdən qaynaqlanan vətənpərvərlik tərbiyəsinə, ideoloji işə xüsusi önəm verilir.

Bu uğurlu işlərin müsbət nəticəsidir ki, hərbi andına sadiq olan Ordumuz dövlətinə inanır, xalqına arxalanır, qələbə əzminə, peşəkarlığına güvənərək torpaqlarımızın işğal edilməsi ilə bağlı döyüş əmrinin icrasına hazır və qadir olduğunu əminliklə dilə gətirir.

Sözardı: Babalarının qəhrəmanlıqları olmayan, tarixi keçmişi saxtakarlıqlarla dolu, vətən anlayışına yad, terrorla, qanla, günahsız insanları qətliam etməklə var olmağa çalışan xalqın işğalçı ordusunda xidmət edənlər bütün mənəvi dəyərləri tapdamış olurlar. O da məlumdur ki, cinayətkar qanunların hökm sürdüyü, sosial-məişət şəraiti bərbad olan, ən adi tibbi normalardan məhrum, qeyri-sağlam mənəvi şəraitdə xidmət keçməyə məhkum edilən və ən əsası, nə üçün vuruşduğunun ideoloji mahiyyəti ilə güclənməyən əsgərin qəlbi tərəddüdlərlə dolur, tərəddüd və şübhəyə yol açır. Yaranan şübhələr inamsızlığa rəvac verir. İnamsızlıq ümidsizlik doğurur ki, bu da döyüşçünün qəlbində kök salır və əsgərin iradəsi zəifləyir, dözümü sarsılır. Zaman göstərdi ki, işğalçı Ermənistan ordusunda mənəvi-psixoloji mühit həqiqətən də belə vəziyyətdədir. Düşmən ordusunu bizim əsgərimiz qarşısında zəif, qorxaq, aciz edən məhz bu ordunun bütün müsbət ideoloji aspektlərdən anlayışsız olmasıdır.

# "Ölkəmizin koronavirusla mübarizə təşəbbüsləri beynəlxalq müstəvidə yüksək dəyərləndirilir"

***"Azərbaycan Respublikasının Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikası tərəfindən dünyada COVİD-19 pandemiyasının başlanmasından etibarən regional və qlobal səviyyədə koronavirusa qarşı mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə zəruri təşəbbüslər irəli sürülür və əməli addımlar atılır". Bunu SİA-ya açıqlamasında YAP Saatlı rayon təşkilatının sədri Lütvəli Şıxəliyev deyib.***

Rayon təşkilatının sədri bildirib ki, pandemiya insanların həyatını təhlükə altına qoyan ciddi sağlamlıq problemləri yaratmaqla bərabər mənfi fəsadları hələ uzun müddət hiss olunacaq sarsıdıcı qlobal sosial-iqtisadi və humanitar təhlükələr yaradıb: "Dünya müharibəsi ilə müqayisə olunan COVİD-19 pandemiyası şəraitində özünü təcrid və franqmentar xarakter daşıyan tədbirlər əvəzinə qlobal həmrəyliyə və qlobal baxışa böyük ehtiyac vardır. Təəssüf ki, bu günə kimi beynəlxalq münasibətlər sistemində BMT və onun əsas qurumları olan Baş Assambleya və Təhlükəsizlik Şurasının rolu görünmür, dünyanın aparıcı ölkələri qlobal liderlik əzəzinə geosiyasi rəqabət və özünü təcridə köklənibləр. Böyük dövlətlər və beynəlxalq təşkilatlardan qlobal liderlik gözlənilsə də bu baş vermədi. Daha çox özünü təcrid, milli eqoizm xarakteri daşıyan və fraqmentar addımlar atıldı. BMT Təhlükəsizlik Şurasının xüsusi iclaslarının çağırılması təşəbbüsü fikir ayrılığına görə baş tutmadı. BMT Baş Məclisi çərçivəsində bir neçə qətnamə layihəsi irəli sürülsə də onların da əksəriyyəti uğurla nəticələnmədi və yalnız deklarativ mətnlərlə yekunlaşdı".

L.Şıxəliyev qeyd edib ki, ölkəmizin koronavirusla mübarizə istiqamətində təşəbbüsləri beynəlxalq müstəvidə yüksək dəyərləndirilir: "Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının sədri kimi təşəbbüsü ilə 2020-ci il mayın 4-də Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş "COVİD-19-a qarşı birləşməliyik" mövzusunda Zirvə görüşü Azərbaycana və onun liderinə dünyada olan inamın, etibarın və etimadın nəticəsidir. COVİD-19 pandemiyasının yayılmağa başladığı vaxtdan bu günə kimi beynəlxalq müstəvidə bu formatda və miqyasda konfranslar, birgə müzakirələr keçirilməyib. Bu da əlbəttə ki, Azərbaycan Prezidentinin təşəbbüsünə verilən növbəti qlobal dəstək deməkdir. Prezident cənab İlham Əliyevin kritik məqamlarda verdiyi çevik və qətiyyətli qərarlar Azərbaycanı dünyada fərqləndirir. Bölgədə yeganə güc sahibi olan Azərbaycan beynəlxalq aləmdə güvənilən, etibar edilən ölkə statusunu artırır, yerini və mövqeyini möhkəmləndirir. Sammitdə dövlətimizin Başçısı çox vacib bir təkliflə çıxış etdi ki, qlobal həmrəyliyin nümunəsi kimi Qoşulmama Hərəkatının üzvü olan ölkələr olaraq BMT Nizamnaməsində nəzərdə tutulan Baş Assambleyanın COVİD-19 pandemiyasına həsr olunmuş dövlət və hökümət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sesiyası keçirilsin.

Azərbaycan Respublikası COVİD-19-a qarşı mübarizədə qlobal həmrəyliyin nümunəsi kimi Ümumdünya Səhiyyə Təşkilatına könüllü ianə ayırmış, 30-dan artıq dövlətə humanitar yardım vermişdir.

Prezident İlham Əliyev Qoşulamama Hərəkatının onlayn Zirvə görüşündə çıxışı zamanı qlobal həmrəyliyin nümunəsi kimi pandemiya ilə mübarizə məqsədilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifi ilə çıxış etdi.

BMT Nizamnaməsinə əsasən, BMT Baş Assambleyası ehtiyac duyulduğu təqdirdə Xüsusi sessiyalar keçirə bilər. Xüsusi sessiyalar BMT Təhlükəsizlik Şurasının və ya BMT-yə üzv ölkələrin çox hissəsinin müraciəti əsasında Baş katib tərəfindən çağırılmalıdır. BMT-nin təsis olunmasından indiyə qədər Baş Assambleyanın xüsusi sessiyaları məhdud sayda keçirilmişdir.

Təklif Nyu Yorkda 120 Qoşulmama Hərəkatının üzv ölkələri arasında yekdilliklə razılaşdırılmış və bunun ardınca Qoşulmama Hərəkatının sədri Prezident İlham Əliyev Qoşulmama Hərəkatı ölkələri adından BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifi ilə BMT baş katibi Antonio Quter-



reşə müraciət ünvanlamışdır.

BMT Baş katibi 28 may tarixində BMT Baş Assambleyasının "Prosedur Qaydaları" adlı sənədinin 9 (a) bəndinə uyğun olaraq bütün üzv ölkələrə müraciət edərək 30 gün müddətində, yəni 27 iyun tarixinə qədər təşəbbüsə dair münasibət bildirilməsini xahiş etmişdir.

Qaydalara əsasən, BMT-yə üzv ölkələrin çox hissəsi (97 ölkə kifayətdir) təşəbbüsə dəstək verdiyi təqdirdə, xüsusi sessiya təşkil olunmalıdır. Azərbaycan tərəfində olan rəsmi məlumatlara görə, sözügedən müddətin bitməsinə qədər 130-qədər ölkə təşəbbüsə dəstək verdikləri barədə Baş katibin ofisini məlumatlandırmışlar.

BMT üzv olan dövlətlərdən 130-a qədəri tərəfindən Qoşulmama Hərəkatının sədri statusunda Prezident İlham Əliyevin BMT Baş Assambleyasının Xüsusi sessiyasının keçirilməsi barədə təşəbbüsünün dəstəklənməsi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə olan böyük etimadın və hörmətin növbəti göstəricisidir".

YAP təmsilçisi bildirib ki, Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, dövlət siyasətində Azərbaycan vətəndaşının mənafeyi öndə durur: "Vətəndaşların etibarlı müdafiəsi qlobal təhlükədən minimum itkilərlə çıxmaq üçün səmərəli tədbirlər həyata keçirilir. Prezident cənab İlham Əliyevin koronavirusla mübarizədə gördüyü işlər ölkə ictimaiyyəti və beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir. Ümumdünya Səhiyyə Təşkilatı bu sahədə Azərbaycan dövlətinin həyata keçirdiyi qabaqlayıcı tədbirləri yüksək dəyərləndirib. Azərbaycanı dünyaya nümunəvi ölkə kimi təqdim edib.

Dövlət Başçısının tapşırıq və göstərişlərinə əsasən dərhal həyata keçirilən zəruri qabaqlayıcı, çevik və sistemli preventiv tədbirlər, atılan proflaktik və təxirəsalınmaz addımlar pandemiyanın ölkəmizdə genişlənməsinin qarşısının alınmasında xüsusi rol oynadı. Azərbaycan bu gün dünyada ən aşağı koronavirusa yoluxma və ölüm halları qeydə alınan ölkələrdən biridir.

Xəstəliyin ilkin simptomlarını özündə hiss edən şəxs təcili tibbi xidmətə müraciət etməlidir ki, tək öz vəziyyətinin ağırlaşdırmasın, ətrafını, qohum-əqrabasını, təmasda olduğu yaxınlarını da yoluxdurmağa davam etməsin. Belə şəxslər təhlükəsizlik qaydalarını pozmamalıdırlar, qohumlarını, qonşularını ziyarət etməməlidirlər. Lakin bəziləri koronavirus pandemiyasına şübhə ilə yanaşırlar və nəticədə ciddi təhlükə mənbəyinə çevirilməkdə davam edirlər. İndi artıq koronavirusun mövcud olub-olmaması müzakirə edilmir. Belə ki, hər birimizin yaxınları arasında yoluxma halları kifayət qədərdir. Ona görə də ilk növbədə məsuliyyətsiz davranışlardan uzaq olmaq, tətbiq olunan qaydalara, tələb və tövsiyələrə ciddi riayət etmək hər bir şəxsin vətəndaşlıq borcudur.

Azərbayan beynəlxalq miqyasda pandemiya ilə mübarizəyə öz töhfəsini verir. Prezident cənab İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının və Qoşulmama Hərəkatının videoformatda Zirvə görüşünün keçirilməsi də buna sübutdur. Avropa ittifaqı isə ilk dəfə olaraq Qoşulmama Hərəkatının tədbirinə yüksək səviyyədə qoşulub. Bu prosesdə Azərbaycan dünyada birləşdirici rol oynadı. Bunun nəticəsi olaraq qeyd edə bilərik ki, hər iki tədbirin keçirilməsinə görə beynəlxalq miqyasda Azərbaycanın rolu çox yüksək qiymətləndirildi.

Dünyanın böyük və kiçik ölkələrinin tam əksəriyyəti bu tədbiri dəstəklədiyi halda bu gün dünyadan yardım diləyən Ermənistan, Azərbaycan Prezidentinin BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi ilə bağlı qlobal təşəbbüsünə qarşı çıxır. Bu, bir daha Ermənistanın əsl mahiyyətini ortaya qoymuş olur. Bütün dünya ölkələri koronavirusla bağlı həmrəylik nümayiş etdirir. Dünya ölkələri bəyan edir ki, bu, çox vacib və vaxtında irəli sürülmüş bir təşəbbüsdür. Lakin Ermənistan tərəfi bu təşəbbüsə qarşı çıxmaqla əsl mahiyyətini ortaya qoydu.

Təşəbbüsü dəstəkləyən ölkələr dünyanın bütün regionlarını əhatə edir. Onlar arasında BMT Təhlükəsizlik Şurasının daimi üzvlərindən tutmu? kiçik ada ölkələrinə qədər vardır. Dövlətlər tərəfindən bu məsələ ilə əlaqədar BMT Baş Katibinə ünvanlanan məktublarda Prezident İlham Əliyevinin Baş Assambleyanın Xüsusi sessiyasının keçirilməsi ilə bağlı təşəbbüsünün vaxtında verilmiş və çox ehtiyac duyulan təşəbbüs olduğu vurğulanır.

Bu mübarizənin ən başlıca əhəmiyyəti ondan ibarətdir ki, bu təkcə Azərbaycanı bu bəladan hifz etmir. Bu təşəbbüs qlobal səviyyədə pandemiyaya qarşı mübarizə prosesinə çox böyük töhfə verir. Pandemiyaya qarşı iqtisadi səylərin birləşərək göstərilməsi daha çox əziyyət çəkən, köməyə ehtiyacı olan ölkələrə dəstək göstərilməsinə imkan yaradır. Tibbi səylərin birləşdirilməsini özündə ehtiva edir. Çünki dünyada nə qədər ki, xəstəliyin mülaciəsi üçün peyvənd tapılmayıb təhlükə davam edəcəkdir. Bu ümumi bəlaya qarşı mübarizə prosesində ən yüksək səviyyədə, BMT Baş Assambleyası səviyyəsində ideya, təşəbbüs ortaya qoyan, Azərbaycan dövləti, onun Prezidenti cənab İlham Əliyev bütün ölkələri həmrəyliyə böyük məsuliyyət ortaya qoymağa çağırır. Bu çağırışın əsas fəlsəfəsi odur ki, gəlin birlikdə bu gözəgörünməz düşmənə qarşı mübarizə aparaq. "Biz birlikdə güclüyük"-deyən cənab Prezidentin bu çağrışı qlobal miqyasda böyük əhəmiyyət və məna kəsb etməklə indiki halda səylərin birləşdirilməsi, birgə addımların atılması, təcrübə mübadiləsinin aparılması bu bəlanın neytrallaşdırımasında önəmlidir. Bu mənada koronavirus pandemiyası bəşəri təhlükə olduğu üçün qlobal cavab tələb edir və bu cavabın verilməsində Azərbaycanın təşəbbüsünün əhəmiyyətini dünya qəbul edir.

Yaxın günlərdə BMT Baş katibi tərəfindən üzv dövlətlərə rəsmi qaydada məlumat verilməsi gözlənilir. Azərbaycan tərəfi ümid edir ki, xüsusi sessiya mümkün qədər tez bir zamanda təşkil olunacaqdır.

Prezident İlham Əliyevin irəli sürdüyü və Qoşulmama Hərəkatı ölkələrinin müdafiə etdiyi təşəbbüs dünya dövlətlərinin əksəriyyəti tərəfindən qəbul ediliyi üçün xüsusi sessiyasının keçirilməsi artıq təkcə Qoşulmama Hərəkatı ölkələrinin deyil, BMT-yə üzv olan bütün ölkələrin ümumi məsələsinə çevrilmişdir.

Xüsusi sessiya pandemiya qarşısında beynəlxalq ictimaiyyətin tam olaraq səfərbər olunmasına şərait yaradacaq və bu qlobal təhdidə qarşı qlobal cavabın tapılmasına öz müsbət töhfəsini verəcəkdir. COVİD-19 pandemiyasının davam etməsi bir daha onu göstərir ki, dünya ölkələrinin dövlət və hökumət başçıları səviyyəsində dünya parlamenti adlandırılan BMT Baş Assambleyasının Xüsusi sessiyası çərçivəsində təcili və təxirəsalınmadan bir araya gəlməsinə, dünyanı bürüyən COVİD-19 bəlasından çıxış yollarını müzakirə etməsinə və həll yollarının tapılmasına böyük ehtiyac və tələbat vardır. Azərbaycan Respublikası Prezident cənab İlham Əliyevin rəhbərliyi altında Qoşulmama Hərəkatına sədrliyi dönəmində bundan sonra da multilateralizmə, dünya ölkələrinin ümumi təhdidlər qarsında birləşməsinə və qlobal həmrəyliyin gücləndirilməsinə yönəlmiş fəaliyyətini davam etdirəcəkdir".

***Rəfiqə HÜSEYNOVA***

## "Hraparak": "Sarukyan əleyhinə ifadə verəcəkləri ümidi ilə həbslər edilir"



Dünən seçicilərin rüşvət müqabilində ələ alınması ilə bağlı iş çərçivəsində başqa bir şəxs, "Sarukyan Bloku" fraksiyasının keçmiş deputatı Vanik Asatryan həbs olunub. SİA xəbər verir ki, bu barədə Ermənistana məxsus "Hraparak" qəzeti yazır.

Qəzet yazır ki, əvvəllər Abraham Manukyan da həbs edilmişdi. "Bu insanlar yalnız "Çiçəklənən Ermənistan" Partiyasının rəhbərlərinə və xüsusilə Qaqik Sarukyana qarşı ifadə verəcəkləri ümidi ilə həbsə atılırlar. Ancaq erməni mediasının əldə etdiyi məlumata görə, heç kim ifadə vermir, Ermənistan hakimiyyəti dəlil də tapmır.

Görünür, həbs olunanlar tezliklə sərbəst buraxılacaqlar. Deyirlər ki, Abraham Manukyanın həbsini girov ilə əvəz etmək tələbi təmin ediləcək", deyə nəşr yazır.

## Karantin postlarından 500 avtomobil geri qaytarılıb




İyulun 7-də karantin postlarından 500 avtomobil geri qaytarılıb. Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsindən AZƏRTAC-a bildiriblər ki, iyulun 7-si saat 00:00-dan iyulun 8-i saat 00:00-dək olan müddətdə Bakı-Quba yolunun 52-ci kilometrliyində yerləşən karantin keçid postundan 35-i rayon, 75-i paytaxt istiqamətinə olmaqla 110, Bakı-Şamaxı-Yevlax yolunun 31-ci kilometrliyində yerləşən postdan 55-i rayon, 135-i paytaxt istiqamətinə olmaqla 190, Bakı-Qazax-Gürcüstan sərhədi yolunun 65-ci kilometrliyində yerləşən keçid postundan 140-ı rayon, 60-ı paytaxt istiqamətinə olmaqla 200 avtomobil geri qaytarılıb. Ümumilikdə 500 nəqliyyat vasitəsi ilə müvafiq icazə olmadan postlardan keçmək cəhdinin qarşısı alınıb.

# Rövşən Əhmədov: "BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi təşəbbüsü tarixi hadisədir"

***"Bəşər tarixi bir çox epidemiyaların, kütləvi ölümlərin şahidi olub. İnsanlıq zaman-zaman milyonlarla insanın ölümünə səbəb olan "Qara ölüm" adlanan taun, vəba, malyariya, cüzam, yatalaq kimi epidemiyalara məruz qalıb". Bu fikirləri "Səs" qəzetinə YAP Ağcabədi rayon təşkilatının sədri Rövşən Əhmədov bildirib.***



Onun sözlərinə görə, bu xəstəliklərin bəziləri tarixə gömülüb, bəziləri indi mövcud olsa belə, əvvəlki illərdəki kimi kütləvi insan tələfatına səbəb olmur. Çünki bu gün elm bir çox ciddi xəstəliyin peyvəndini kəşf edib, müasir tibb gündən-günə inkişaf edir, xəstəliklərlə mübarizə mexanizmləri dəyişir, inkişaf edir: "Lakin viruslar da tam ölmür, hər 10-15 ildən bir genetik dəyişikliyə uğrayır ki, bu da onu tam məğlub etməyə imkan vermir. Hər il dünya yeni-yeni virusla rastlaşır. Onların bir çoxunun qarşısı alınır, lakin heç də hamısının qarşısını almaq mümkün olmur. Hazırda dünya daha bir qlobal təhlükə ilə - yeni növ koronavirusla üz-üzə dayanmışdır.

Ötən ilin sonlarından Çində yayılmağa başlayan və "Covid-19" adlanan bu virus çox qısa bir zamanda demək olar ki, bütün dünyanı cənginə aldı. Dünyanın əksər ölkələri, hətta inkişaf etmiş ölkələr belə ilkin mərhələdə insanların həyatını ciddi təhlükədə qoyan, böyük sosial-iqtisadi, humanitar problemlər yaradan bu virusla mübarizəyə etinasız yanaşdılar və dünya birliyi ölkələri qlobal yox, lokal mübarizəyə üstünlük verərək, özünü qoruma, özünü təcrid yolunu seçdilər. Halbuki, Dünya ölkələri Ümumdünya Səhiyyə Təşkilatının həyacan təbili çaldığı ilk dövrlərdə "Covid-19" virusuna qarşı mübarizədə səylərini birləşdirsələr, daha ciddi karantin qaydaları tədbiq etsəydilər, virus bu qədər geniş yayılmaz, qarşısı alınardı".

Rayon təşkilatının sədri bildirib ki, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin koronavirus pandemiyasının yayılmağa başladığı ilkin dövrdə ölkə daxilində bir sıra qabaqlayıcı tədbirlər görməsi sahəsində ölkəmizdə bu virusun yayılmasının qarşısı müfəvvəqiyyətlə alındı və Cənab Prezident bu virusa qalib gəlmək üçün beynəlxalq aləmin birgə mübarizə aparmaq ideyasını ortaya qoydu. Dünyanın bir çox ölkəsi, xüsusi ilə böyük dövlətlər öz maraqlarını hər şeydən üstün tutur, hansısa ölkənin təşəbbüslərlə çıxış etmələrinə qısqanclıqla yanaşırlar: "Buna baxmayaraq Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev virusa qarşı birgə mübarizə aparmaq təşəbbüsü ilə çıxış edərək vaxtında çox əhəmiyyətli addım atdı. Bu təşəbbüs nəticəsində bir sıra ölkələr öz aralarında rəqabəti kənara qoyub əməkdaşlıq fikrini qəbul etdilər.

Prezident İlham Əliyevin təşəbbüsü ilə ilk olaraq Türk Şurasının onlayn formatda Zirvə görüşü keçirildi. Pandemiyaya qarşı mübarizədə bu görüş türkdilli ölkələr üçün qarşılıqlı fayda verdi. Bunun ardınca Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupunun onlayn formada Zirvə görüşünün keçirilməsi də pandemiyaya qarşı birgə əməkdaşlıq üçün stimul yaratdı. Qoşulmama Hərəkatının üzvü olan elə ölkələr var ki, öz aralarında münasibətləri normal deyil. Amma Zirvə görüşündə bir araya gəlib birgə müzakirə apardılar. Bu, o deməkdir ki, Azərbaycan Prezidenti İlham Əliyev pandemiya ilə mübarizəni regional müstəvidən beynəlxalq müstəviyə, sonra da ümumbəşəri müstəviyə qaldırdı. Prezident İlham Əliyevin 120 ölkəni özündə birləşdirən Qoşulmama Hərəkatının sədri kimi 2020-ci il mayın 4-də QH-nin Təmas Qrupunun COVİD-19 pandemiyasına həsr edilmiş onlayn Zirvə Görüşündə Qoşulmama Hərəkatı üzv dövlətləri ilə yanaşı BMT-nin Baş Katibi, BMT Baş Assambleyasının Prezidenti, Ümumdünya Səhiyyə Təşkilatının Baş Direktoru, Afrika İttifaqı və Avropa İttifaqı kimi beynəlxalq təşkilatların yüksək rütbəli nümayəndələri də iştirak etdilər. Prezident İlham Əliyev Qoşulmama Hərəkatının onlayn Zirvə görüşündə çıxışı zamanı qlobal həmrəyliyin nümunəsi kimi pandemiya ilə mübarizə məqsədilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifi ilə çıxış etdi. Pandemiyaya qarşı birgə mübarizə aparmaq barədə Azərbaycan Prezidentinin təşəbbüsün Azərbaycan üçün çox böyük əhəmiyyəti var. Bu addım ölkəmizin dünyada imicimizi daha da artırır, ölkəmizin nüfuzunu yüksəldir, dünya dövlətləri içərisində söz sahibi kimi mövqeyini gücləndirir, Azərbaycanın dünya ölkələri ilə əlaqələrini genişləndirir. Bu kimi siyasi addımlar həm də bizi Qarabağ məsələsinin ədalətli həllinə yaxınlaşdırır. Bu təşəbbüs həm də Azərbaycanı daha yaxşı tanımaq üçün, onun sülhsevər, humanist bir ölkə olmasının təsdiqidir. Ümumilikdə isə Cənab Prezidentin təşəbbüsünün dünya səviyyəsində qəbul olunması, BMT-nin özünün məsələsi kimi gündəmə gəlməsi böyük tarixi hadisədir. İnamla deyə bilərik ki, BMT-yə üzv dövlətlərin böyük əksəriyyəti tərəfindən Qoşulmama Hərəkatının sədri statusunda Prezident İlham Əliyevin xüsusi sessiyanın keçirilməsi barədə olan təşəbbüsünün dəstəklənməsi beynəlxalq aləm tərəfindən ölkəmizə olan etimad və hörmətin bariz nümunəsidir. Bütün dünyada müsbət əks-səda doğuran bu təşəbbüsə qarşı yenə də həmişəki kimi Ermənistan dövləti əks mövqedə durmuş, özünün iç üzünü bir daha ortaya qoymuşdur. Biz əminik ki, BMT-nin keçirilməsi nəzərdə tutulan xüsusi sessiyası pandemiya qarşısına sipər çəkilməsində beynəlxalq ictimaiyyətin tam səfərbər olunmasına şərait yaradacaq və bu ümumbəşəri bəlaya qarşı birgə mübarizənin aparılmasına öz töhfəsini verəcəkdir. Ölkə rəhbəri Cənab İlham Əliyevin hər bir uğurlu diplomatik addımı bütün xalqımızda, o cümlədən cəbhə bölgəsi olan Ağcabədilılərdə qürur hissi yasadır. Biz fəxr edirik ki, ölkəmizin Prezidenti Cənab İlham Əliyev dünyaya sübut etdi ki, Azərbaycan dövləti ərazicə kiçik, əhalisinin sayı 10 milyon olsa da sözün əsl mənasında güclü dövlət və böyük xalqdır. Bu xalqın Lideri isə dünya azərbaycanlılarının qürur duyduğu Cənab İlham Əliyevdir".

R.Əhmədov Azərbaycanın "COVİD-19"-a qarşı mübarizədə qlobal həmrəyliyin nümunəsi kimi Ümumdünya Səhiyyə Təşkilatına könüllü ianə ayırdığını, 30-dan artıq dövlətə humanitar yardım göstərdiyini də diqqətə catdırıb. Cari ilin iyun ayının 3-də Cənab İlham Əliyev Ağcabədi rayonuna səfəri zamanı "Asan Həyat" Mərkəzinin açılışında demişdir: "Təsadüfü deyil ki, Ümumdünya Səhiyyə Təşkilatı pandemiya ilə mübarizə sayəsində görülmüş işlərə yüksək qiymət verərək Azərbaycanı nümunəvi ölkə adlandırıb. Bəlkə də başqa ölkələr haqqında oxşar fikirlər səsləndirilib, amma mən eşitməmişəm. Amma Azərbaycana gəldikdə, Ümumdünya Səhiyyə Təşkilatı, o təşkilat ki, dünya miqyasında bütün səhiyyə sahəsində işlərə rəhbərlik edir və işləri koordinasiya edir, Azərbaycanə nümunəvi ölkə adlandırıb. Bütün bunlar bir daha onu göstərir ki, birincisi, Azərbaycan güclü dövlətdir, ikincisi, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır, onun sağlamlığıdır. Bu, onu göstərir ki, bizim tədbirlərimiz məqsədyönlüdür, səmərəlidir, vaxtında atılmış cəsarətli addımlardır".

Ölkəmizdə koronovirus qarşı mübarizə tədbirləri çərçivəsində Prezidentin qəbul etdiyi qərarların və Nazirlər Kabineti yanında fəaliyyət göstərən Operativ Qərargahın tətbiq etdiyi ciddi karantin rejiminin qaydalarına əməl olunması sahəsində çox böyük işlər görülür. Uğura nail olmaq üçün insanların vətəndaşlıq borcunu yerinə yetirməsi başlıca şərtdir. Hər kəs dərk etməlidir ki, həm özünü, həm ətrafdakıları, bütölükdə xalqımızı bu ağır bəladan qorumaq üçün bir vətəndaş kimi onun üzərinə böyük məsuliyyət düşür. Hamı öz üzərinə düşən vəzifəni yerinə yetirsə, bu ağır bəladan quratacağımız gün uzaqda deyil.

***Zümrüd BAYRAMOVA***

# Azərbaycan Prezidentinin diplomatik qələbəsi

***Aylardır dünayanı bürüyən koronavirus (COVİD-19) infeksiyası hələdə sovuşmayıb və bəşəriyyəti təhdid etməkdə davam edir.Dünyada böyük bir bəlaya çevrilən COVİD-19 adlı infeksiyanın qarşısında dünyanın bir çox böyük dövlətləri naəlac qaldığı bir məqamda, Prezident İlham Əliyevin müdirik liderliyi ilə bu təhlükənin önlənməsi, əhalinin sağlamlığının qorunması üçün vaxtında ardıcıl şəkildə düşünülmüş lazımi addımlar atıldı. Bütün dünya, həmçinin xalqımız görür ki, pandemiya başlayandan indiyə qədər məhz ölkə Prezidentinin düşünülmüş siyasəti nəticəsində Azərbaycanda vəziyyəti nəzarət altında saxlamaq mümkün olub.***



Karantin müddətinin uzadılması da, dövlətin öz vətəndaşlarına daha diqqətli olmasının realığıdır. Dünya ölkələrinin COVİD-19 pandemiyasının yaratdığı böyük çətinliklərdən əziyyət çəkdikləri bir vaxtda Azərbaycan xalqının sağlamlığının qorunması, insanların rifahının yaxşılaşdırılması istiqamətində görülən işlər, xüsusilə də geniş miqyaslı sosial dəstək tədbirləri nümunəvi xarakter daşıyır.

Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikası tərəfindən regional və qlobal səviyyədə koronavirusa qarşı mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə zəruri təşəbbüslər irəli sürülür və əməli addımlar atılır. Azərbaycan gənc dövlət olsa da, dünyada böyük nüfuz və etimad sahibidir. Son dövrlər dünyada ölkəmizin irəli sürdüyü təşəbbüslərə göstərilən yanaşma bunun əyani sübutudur. Bunun başlıca səbəbi Prezident İlham Əliyevin apardığı praqmatik siyasət və qarşıya qoyulan hədəflərə çatmaq üçün sərgilədiyi iradədir. Prezidentin koronavirus pandemiyasına qarşı mübarizədə dünya ölkələrinə verdiyi birlik və həmrəylik mesajları, irəli sürdüyü təkliflər isə Azərbaycanın dünyadakı çəkisini daha da artırdı. Dünya ölkələri koronavirusla mübarizə metodları axtardığı bir zamanda Azərbaycan Prezidenti qlobal çağırış etdi və dövlətləri vahid düşmənə qarşı birlikdə mübarizə aparmağa səslədi. Prezident İlham Əliyevin təşəbbüsü ilə ilk olaraq aprel ayının 10- da Türk Şurasının onlayn formatda Zirvə görüşü keçrildi. Pandemiyaya qarşı mübarizədə bu görüş türkdilli ölkələr üçün çox faydalı bir platforma oldu. Prezident İlham Əliyevin təşəbbüsü ilə mayın ayının 4-də isə Qoşulmama Hərəkatının Təmas Qrupunun "COVID-19" pandemiyasına həsr olunmuş onlayn Zirvə görüşünün keçrilməsi pandemiyaya qarşı birgə əməkdaşlığa böyük töhfə oldu. Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının onlayn Zirvə görüşündə çıxışı zamanı qlobal həmrəyliyin nümunəsi kimi pandemiya ilə mübarizə məqsədilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifinə dünya ölkələri yekdilliklə razılıq vermiş və təşəbbüsə dəstək verdikləri barədə Baş katibin ofisini məlumatlandırmışlar. Qoşulmama Hərəkatının Sədri kimi Prezident İlham Əliyevin BMT Baş Assambleyasının COVİD-19-a həsr olunmuş xüsusi sessiyasının keçirilməsinə dair təşəbbüsünün dünyanın 130-a qədər BMT-yə üzv dövləti tərəfindən dəstəklənməsi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə olan böyük etimadın və hörmətin növbəti göstəricisidir. Prezident İlham Əliyevin irəli sürdüyü və Qoşulmama Hərəkatına üzv ölkələrin müdafiə etdiyi təşəbbüs dünya dövlətlərinin əksəriyyəti tərəfindən qəbul ediliyi üçün xüsusi sessiyasının keçirilməsi artıq təkcə Qoşulmama Hərəkatı ölkələrinin deyil, BMT-yə üzv olan bütün ölkələrin ümumi məsələsinə çevrilmişdir. Xüsusi sessiya pandemiya qarşısında beynəlxalq ictimaiyyətin tam olaraq səfərbər olunmasına münbit mühit yaradacaq və bu qlobal təhdidə qarşı elə məhz qlobal səviyyədə də cavabın tapılmasına öz müsbət töhfəsini verəcəkdir.

Bu təşəbbüsə qarşı çıxış edən yeganə dövlət Ermənistan olmuşdur. Bu gözlənilən idi, çünki Azərbaycanın artan nüfuzu, sözünün eşidilməsi işğalçı ölkə olan Ermənistanı həmişə rahatsız edib, bu gündə edir. Çünki bütün dünya COVİD-19-a qarşı mübarizədə həmrəyliyin vacibliyini vurğuladığı halda, Ermənistan qolobal xarakter daşıyan bu təşəbbüsə qarşı çıxış etməklə, BMT sistemində və dünya dövlətləri arasında özünü rüsvay etdi.

***Kamil Mirzəyev***
***YAP Biləsuvar rayon təşkilatının sədri***

# BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi təşəbbüsünün dəstəklənməsi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə olan böyük etimadın növbəti göstəricisidir



*Milli Məclisin deputatı Cavid Osmanovun yap.org.az-a müsahibəsi*

***- Cavid müəllim, Azərbaycan Respublikası koronavirus pandemiyası ilə mübarizədə mühüm təşəbbüslərlə çıxış edir. Bu barədə nə deyə bilərsiniz?***

- Bilirsiniz ki, dünyanı bürüyən koronavirus infeksiyası hələ də sovuşmayıb və bəşəriyyəti təhdid etməkdə davam edir. Virusa qalib gəlməyin isə məhz dövlət və vətəndaş həmrəyliyindən asılı olduğunu dünyanın bir çox ölkələrində rast gəlinən acı həqiqətlər də təsdiqlədi. Buna görədir ki, koronavirusa zamanında ciddi yanaşmayan ölkələrdə sonradan görülən tədbirlər, alınan qadağa qərarları elə də səmərəli olmadı və bu təsir gücünün işlək olmamasında vətəndaşların da həmin qaydalara əməl etməməsinin böyük rolu oldu.

Son nəticədə bəşəriyyət yalnız bir olaraq, həmrəylik nümayiş etdirməklə pandemiyaya qarşı qalib gələ bilər və Azərbaycanda aparılan işlər də buna bir nümunədir. Məhz bu baxımdan Qoşulmama Hərəkatının 40-dan çox üzv ölkənin dövlət və hökumət başçılarının, həmçinin aparıcı beynəlxalq təşkilatların rəhbərlərinin Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsünə dəstək verməsi və onların təşkilatın Təmas Qrupunun Zirvə görüşündə iştirakları, eyni zamanda, ölkəmizin və onun liderinin nüfuzunun nə qədər yüksək olduğunu bir daha göstərdi. Artıq bütün dünya görür və etiraf edir ki, Azərbaycan koronavirus pandemiyasına qarşı mübarizədə fəal rol oynayır. Ölkəmizdə aparılan işlərin hər birinə bilavasitə Prezident İlham Əliyev şəxsən nəzarət edir. O cümlədən Birinci vitse-prezident xanım Mehriban Əliyevanın bu işlərdə göstərdiyi dəstək əvəzsizdir. Bu baxımdan Azərbaycanda aparılan işlər digər ölkələrə nümunə olaraq göstərilir.

Prezident İlham Əliyev Qoşulmama Hərəkatının Zirvə görüşündə bildirib ki, koronavirus pandemiyası dünyada vəziyyəti tamamilə dəyişib və nəticədə yeni reallıqlar meydana çıxıb. Azərbaycan yeni vəziyyətə çevik və adekvat reaksiya verir. Görüşdə Prezident İlham Əliyev əhatəli çıxış etdi və ölkəmizdə koronavirus pandemiyasına qarşı aparılan tədbirlər haqqında ətraflı məlumat verdi. Ölkə başçısının qeyd etdiyi kimi, pandemiyanın dünyanı bürüdüyü indiki şəraitdə ölkələrin birgə əməkdaşlığına böyük ehtiyac var. Prezident vurğuladı ki, COVID-19 pandemiyası bütün dünya dövlətlərinə mənfi təsir göstərir. Heç bir ölkə bundan sığortalanmayıb. Qarşılıqlı dəstək, özünə qapanmama və yalnız birgə səylərlə COVID-19-a qalib gələ bilərik.

Prezident İlham Əliyevin təşəbbüsü ilə belə bir Zirvə görüşünün keçirilməsi və görüşün sonunda Bəyannamənin qəbul olunması bütün dövlətlərin səylərinin birləşdirilməsi çağırışının məntiqi sübutudur. Belə ki, Azərbaycan öz təşəbbüsləri ilə qlobal əməkdaşlıq üçün mühüm platforma və körpü yaradıb, bu körpünün möhkəm dayaqlara söykənməsi də əlbəttə ki, şübhəsizdir. Eyni zamanda, Azərbaycan Prezidentinin sədrliyi dövründə Qoşulmama Hərəkatının nüfuzunun, beynəlxalq aləmdə oynadığı rolun artırılması istiqamətində çox mühüm təşəbbüslər irəli sürür. Ona görə də hesab edirəm ki, Təmas Qrupu formatında Zirvə görüşü də bu mənada çox əhəmiyyətli və vacib reallıqdır.

***- Azərbaycan Prezidenti İlham Əliyevin COVID-19 pandemiyası ilə mübarizə ilə bağlı BMT Baş Assambleyasının sessiyasının keçirilməsi haqqında təklifi dünyanın 130 ölkəsi tərəfindən dəstəklənib. Bu hadisənin əhəmiyyəti nədən ibarətdir?***

- Azərbaycanın dövlət başçısının pandemiya ilə mübarizədə qlobal həmrəyliyin möhkəmləndirilməsinə hesablanan növbəti təşəbbüsü BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi ilə bağlıdır. Prezident İlham Əliyev bu təklifi Qoşulmama Hərəkatının yuxarıda bəhs etdiyim Zirvə görüşündə çıxışı zamanı səsləndirib.

BMT-nin Nizamnaməsinə əsasən, qurumun Baş Assambleyası ehtiyac duyulduğu təqdirdə xüsusi sessiyalar keçirə bilər. Xüsusi sessiyalar BMT Təhlükəsizlik Şurasının və ya BMT-yə üzv ölkələrin çox hissəsinin müraciəti əsasında Baş katib tərəfindən çağırılmalıdır. Qeyd edək ki, BMT-nin təsis olunmasından indiyə qədər Baş Assambleyanın xüsusi sessiyaları məhdud sayda keçirilib. Azərbaycan Prezidentinin təklifi Nyu Yorkda Qoşulamama Hərəkatının 120 üzv ölkəsi arasında yekdilliklə razılaşdırılıb. Bunun ardınca Qoşulmama Hərəkatının Sədri, Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatı ölkələri adından BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifi ilə BMT baş katibi Antonio Quterreşə müraciət ünvanlayıb. Öz növbəsində qurumun Baş katibi 28 may tarixində BMT Baş Assambleyasının "Prosedur Qaydaları" adlı sənədinin 9 (a) bəndinə uyğun olaraq bütün üzv ölkələrə müraciət ünvanlayaraq 30 gün müddətində, yəni 27 iyun tarixinə qədər təşəbbüsə dair münasibət bildirilmələrini xahiş edib.

Qaydalara əsasən, BMT-yə üzv ölkələrin çox hissəsi (97 ölkə kifayətdir) təşəbbüsə dəstək verdiyi təqdirdə, xüsusi sessiya təşkil olunmalıdır. Verilən rəsmi məlumatlara görə, sözügedən müddətin bitməsinə qədər 130-a qədər ölkə təşəbbüsə dəstək verdikləri barədə Baş katibin ofisini məlumatlandırıblar. BMT üzvü olan 130-dək dövlətin Qoşulmama Hərəkatının Sədri statusunda Prezident İlham Əliyevin BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi barədə təşəbbüsünü dəstəkləməsi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə olan böyük etimadın və hörmətin növbəti göstəricisidir.

Onu da vurğulamaq yerinə düşər ki, təşəbbüsü dəstəkləyən ölkələr dünyanın bütün regionlarını əhatə edir. Onlar arasında BMT Təhlükəsizlik Şurasının daimi üzvlərindən tutmuş kiçik ada ölkələrinə qədər vardır.

***- Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi beynəlxalq səviyyədə pandemiya ilə mübarizəyə hansı töhfələr verəcək?***

- Dövlətlər tərəfindən bu məsələ ilə əlaqədar BMT Baş katibinə ünvanlanan məktublarda Prezident İlham Əliyevinin Baş Assambleyanın xüsusi sessiyasının keçirilməsi ilə bağlı təşəbbüsünün vaxtında verilmiş və çox ehtiyac duyulan təşəbbüs olduğu vurğulanır. Prezident İlham Əliyevin irəli sürdüyü və Qoşulmama Hərəkatı üzvlərinin müdafiə etdiyi təşəbbüs dünya dövlətlərinin əksəriyyəti tərəfindən qəbul olunduğu üçün xüsusi sessiyasının keçirilməsi artıq təkcə Qoşulmama Hərəkatı ölkələrinin deyil, BMT-yə üzv olan bütün dövlətlərin ümumi məsələsinə çevrilib.

Xoş niyyətə əsaslanan bu təşəbbüsə qarşı çıxış edən yeganə dövlət isə Ermənistan olmuşdur. Bütün dünya COVİD-19-a qarşı mübarizədə beynəlxalq həmrəyliyin vacibliyini vurğuladığı halda, Ermənistan qlobal xarakter daşıyan bu təşəbbüsə qarşı çıxış etməklə BMT sistemində və dünya dövlətləri arasında özünü bir daha rüsvay edib. Bütün dünya bir daha Ermənistanın əsl irticaçı mahiyyətinin şahidi olub.

Bütövlükdə, Azərbaycan tərəfi ümid edir ki, xüsusi sessiya mümkün qədər tez bir zamanda təşkil olunacaq. Respublikamız Prezident İlham Əliyevin rəhbərliyi altında Qoşulmama Hərəkatımnda sədrliyi dönəmində bundan sonra da dünya ölkələrinin ümumi təhdidlər qarşında birləşməsinə və qlobal həmrəyliyin gücləndirilməsinə yönəlmiş fəaliyyətini davam etdirəcək.

# Ağalar Vəliyev: "Azərbaycan pandemiya ilə mübarizədə regional və qlobal miqyasda həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə əhəmiyyətli töhfələr verir"

***"Azərbaycan dövlətinin koronavirus pandemiyasına qarşı mübarizədə atdığı mühüm addımlar sırasında modul tipli xəstəxanaların yaradılması böyük əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına əsasən 2000 çarpayılıq 10 modul tipli xəstəxana kompleksindən artıq bir neçəsi istifadəyə verilib. Belə modul tipli xəstəxanalar koronavirusa yoluxanların lazımi tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetmə və əlaqələndirmənin təmin edilməsində önəmli rol oynayır". Bu fikirləri KİV-ə açıqlamasında Milli Məclisin deputatı Ağalar Vəliyev söyləyib.***



Millət vəkili vurğulayıb ki, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Bakının Xətai rayonunda 800 xəstəni qəbul etmək imkanına malik olan 10 korpusdan ibarət modul tipli hospitalın açılışında iştirak etməsi hər zaman olduğu kimi bütün çətin situasiyalarda dövlətimizin iqtisadi qüdrətinin və mənəvi gücünün vətəndaşlarımızın sağlamlığının və insanlarımızın təhlükəsizliyinin qorunmasına yönəldilməsinin daha bir nümunəsi idi.

Açılış mərasimi dövlət başçısının 3 yerli telekanala verdiyi əhatəli və məzmunlu müsahibə ilə əlamətdar oldu. Bu müsahibədə nəinki ölkə daxilində, eləcə də müasir dünyamızda baş verən proseslərin geniş təhlili verilib.

Bildirilib ki, son illərdə respublikamızda 36 müasir xəstəxana inşa edilib. Qısa müddət ərzində 5000-dən çox xəstəni yerləşdirməyə imkan verəcək modul tipli xəstəxanaların sayı 15-ə, labaratoriyaların sayı isə 44-ə çatdırılacaq. Bu günədək ölkəmizdə 500 mindən çox test aparılıb ki, adambaşına düşən testlərin sayına görə Azərbaycan dünyada təxminən 40- cı yerdə qərarlaşıb.

Ağalar Vəliyev qeyd edib ki, COVİD-19 infeksiyasının yayılmasının qarşısının alınması və onun fəsadlarının aradan qaldırılması istiqamətlərində zəruri preventiv tədbirlərin görülməsi bütövlükdə vəziyyəti nəzarət altında saxlamağa imkan verib.

Azərbaycan nəinki milli səviyyədə pandemiya ilə mübarizədə səmərəli tədbirlər həyata keçirir, eyni zamanda regional və qlobal miqyasda həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə əhəmiyyətli töhfələr verir. Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar məbləğində könüllü ianənin ayrılması və 30-dan artıq dövlətə humanitar yardımın göstərilməsi məhz bu qlobal həmrəyliyin nümunəsi kimi dəyərləndirilməlidir.

Milli Məclisin üzvü açıqlamasında xüsusi olaraq vurğulayıb ki, Prezident İlham Əliyevin digər təşəbbüsləri ilə yanaşı, qlobal həmrəylik nümunəsi kimi pandemiya ilə mübarizə məqsədilə BMT Baş Assambleyasının videokonfrans formatında xüsusi sessiyasının keçirilməsi təklifinin 130-dan çox dövlət tərəfindən dəstəklənməsi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə, eləcə də dövlətimizin başçısına olan böyük etimadın və hörmətin növbəti göstəricisidir.

Hazırda bütün dünya COVİD-19- qarşı mübarizədə qlobal həmrəyliyin vacibliyini vurğuladığı halda Ermənistanın bu təşəbbüsə qarşı çıxış etməsi özünü təcridin və təcavüzkar mahiyyətinin nümunəsidir. Təbiidir ki, bunun əsas səbəbi Ermənistanda hökm sürən, xalqımıza və ölkəmizə nifrətin təzahürü olan ksenofobiya və Azərbaycanafobiyadır.

Deputat Ağalar Vəliyev bildirib ki, hər zaman tarixi faktlara və ədalətə əsaslanan dövlət başçımız bir daha Ermənistanın və erməni lobbisinin iç üzünü, işğalçı dövlətin antidemokratik və irticaçı mahiyyətini tutarlı arqumentlərlə ifşa edib. Dünya birliyinə və beynəlxalq qurumlara səslənən Prezident İlham Əliyev haqlı olaraq Ermənistanın antiinsani və antibəşəri addımlarına layiqli cavab verilməsinin zəruriliyini bəyan edib.

# Əli Kərimli - zəmanəmizin Ostap Benderi




"Milli Şura"nın koordinasiya mərkəzində toplaşan yığnağın günü-gündən daha böyük səhvlər və sözün əsl mənasında qələtlər etməsi sanki bir ənənəyə çevrilib. Oradakı anti-milli ünsürlərin gah neftin qiymətinin aşağı düşməsi ilə bağlı özlərini və erməni aşnalarını təbrik etmələri, gah iqtidara yiyələnmək sevdalarını həyata keçirmək üçün şantaj, şər, böhtan atdıqlarını boyunlarına almaları, Azərbaycan xalqını həqarət etmələri, cinsi azlıqlara qahmar çıxmaları məhz bu reallığı özündə kifayət qədər əks etdirməkdədir. Təəssüf ki, "Milli Şura" adlandırılan anti-milli qurumun ucuz politşousuna daha biri də əlavə olundu - özünü koordinasiya şurasının başbilənləri sırasına aid edən, ya da zorla sırıyan Rahim Hacıyevin Qənimət Zahidlə dil-dilə verib AXCP sədri Əli Kərimlini "zəmanəmizin Rəsulzadəsi" (?!-R.R.) adlandırmaları artıq həmin həddin həqiqətən aşıldığını bariz şəkildə sərgiləmiş oldu.

**Məhəmməd Əmin Rəsulzadə millət üçün, müstəqillik üçün mübarizə aparıb, bəs Əli Kərimli..?**

Əslində M.Ə.Rəsulzadənin Azərbaycanın tarixində hansı rola malik olmasını, onun Şərqdə ilk Demokratik Respublika yaratması istiqamətində siyasi və tarixi həmfikirləri ilə ölümlərə bərabər necə çətin aşırımları dəf etməsi barədə uzun-uzadı danışmağa ehtiyac da yoxdur. Bunu hətta tarixi bilgisi olmayan şəxs də bilir və M.Ə.Rəsulzadə faktorunun milli-dövlətçilik tariximizə hansı töhfələri verdiyini dərk edir. M.Ə.Rəsulzadə millət üçün, müstəqillik üçün mübarizə aparıb, bəs Əli Kərimli..?

Daha doğrusu, anti-milli şuranın başbilənləri hansı haqla, hansı cürətlə milli xəyanətkarı, şeytanla əməkdaşlığa hazır olanı, erməni sayt və qəzetlərinin manşetlərindən düşməyən birini M.Ə.Rəsulzadənin adı ilə eyni tuturlar?!

**Əli Kərimlinin hazırkı dövrə qədər hansı siyasi dələduzluqlarını sadalayarsaq, orada Ostap Benderiz izlərini görmək və AXCP sədrini zəmanəmizin "velikiy maxinatoru" adlandırmaq olar**

Burada bir balaca kiçik haşiyə çıxaraq bir xatırlatmanı etmək istərdim. Rus yazıçıları İlya İlf və Yevgeni Petrov tərəfindən yazılmış məşhur "12 stul" romanındakı "velikiy maxinator" (dələduz) Ostap Bender obrazını yəqin ki, çoxları bilir. Bu gün Ə.Kərimliyə zəmanəmizin Ostap Benderi adını versəydilər, qətiyyən bu məsələ ilə bağlı mübahisə etməzdim, əksinə, onun xas tərənnümçüsü kimi qiymətləndirərdim. Məsələn, Ə.Kərimlinin hazırkı dövrə qədər hansı siyasi dələduzluqlarını sadalayarsaq, orada Ostap Benderiz izlərini görmək və AXCP sədrini zəmanəmizin "velikiy maxinatoru" adlandırmaq olar. Bu gün AXCP-dən istefa verənlərdən soruşmaq kifayət edər ki, Əli Kərimli əslində kimdir və hansı "məzhəbə" xidmət edir!

**Ədəbsizlik və əbəslik...**

Ə.Kərimli rəhmətlik Əbülfəz Elçibəyin sədrlik kreslosunu mənimsəməkdən ötrü daha hansı maxinasiyalardan istifadə etmədi ki..? O da əbəs deyil ki, vaxtilə AXCP-nin şinelindən çıxmış və bu gün fərqli yerlərdə olan köhnə cəbhəçilərin əksəriyyəti dəfələrlə öz müsahibə və açıqlamalarında Ə.Elçibəyi məhz Ə.Kərimlinin çərlədib-öldürdüyünü iddia kimi irəli sürürlər. Biz hələ zəhərlənmə, suiqəsd məsələlərini danışmırıq...

Ə.Kərimlinin erməni lobbisinin təsiri altında olan bir sıra xarici qurumlardan aldığı qanunsuz qrantları da hansı bank maxinasiyaları vasitəsi ilə əldə etməsini xatırlatmağa ehtiyac yoxdur. Mətbuatda bu barədə kifayət qədər danışılıb, deyilib, yazılıb. Həmçinin, siyasi arenada bir sıra qurum və birliklərin parçalanmasında, gizli xarici dairələrlə iş birliyində adı hallanan Ə.Kərimlinin birbaşa zəmanəmizin Ostap Benderi adına layiq görülməsinə ikiəlli səs verərdim!

Lakin "Milli Şura"nın növbəti "zoom" toplantısında həmin məsələnin qabardılaraq Azərbaycan xalqından üzr istənilməsini də gözləməyə dəyməz. Dəyməz ona görə ki, onlara nə Azərbaycan, nə dövlət, nə millət, nə də xalq lazım deyil. Onlara hakimiyyətə yiyələnmək üçün saxtakarlıqlar, xəyanətlər, satqınçılıqlar, şər-böhtanlar, bir də tarixi adlara həyasızcasına iddialar lazımdır. Amma əbəs və çox əbəs. Ona görə əbəs ki, onların adi varlıqları belə ədəbsizlik və əbəslikdir...

**Rövşən RƏSULOV**

***P.S.*** *Bunlara imkan versən, nəuzibillah, Allahlıq iddiasında da bulunarlar. Zamanında Hz. Əli əleyhissəlam ona "Allah" deəynlərə çox ağır cəzalar veirb, kafir adlandırırmış...*

# "Milli demokratçılıq", yoxsa milli satqınlar?

## *Yaxud "Milli Şura" satqınları üçün hər şey satlıq maldır*

***Belə bir deyim var - o insanın ruhu və əxlaqı nə qədər alçaq olarsa, belələrinin zehniyyatı də aşağı səviyyədə olar. Çünki hər şeylərini pula satırlar. Elə "Milli Şura"nın həmfikirlilərinin dediyi kimi, "bünövrədən ağılı olmayan ağılsız professor" Cəmil Həsənli kimi. Çünki "Milli şura" deyilən dələduz və xəyanətkarların iblis yuvasındakı xarici qüvvələrin erməni xislətli xidmətçiləri 5-10 qranta görə bütü mənliklərini satırlar. Bəli, satırlar.***



Koronavirus bütün dünya ölkələrində tüğyan etdiyi və insan tələfatının sayı-hesabı olmadığı bir zamanda Azərbaycan dövlətinin elə ilk gündən apardığı operativ və uğurlu işlərinə qara yaxmaqla xalqın dəstəyini qazanmaq arzusu ilə "zoom"la keçirilən iclasında işlədilən ifadələr və videonun həmin hissəsinin sosial şəbəkədə paylaşılması bir daha nəinki xalqın, öz ətrafında olanların nifrətini birə on qat əsəbləşdirib.

### Hafiz Hacıyev: "Milli Şura"-nın dirijoru Kərimli Əli, "ağsaqqalı" Cəmil Həsənli ola, hansı milli qeyrətdən danışmaq olar"

Müasir Müsavat Partiyasınnı sədri Hafiz Hacıyev qeybətxana yuvası olan "Milli Şura"nın "zoom"la keçirilən iclasında işlədilən ifadələri eşitdikdə, əlimi göyə qaldırıb belə tərbiyəsiz və əxlaqsız virusların aramızdan yox olmasını arzuladığını bildirib: "Xarici qüvvələrin diktəsi ilə İstər Kərimli Əlisi, istər Həsənli Cəmil, istər Hacıbəyli Gültəkin və digər satqı və dələduz viruslar birmənalı olaraq hazırda Azərbaycana qarşı mənfur kampaniyalar aparılır. Məqsəd Azərbaycandakı sabitliyi və təhlükəsiz həyat mühitini pozaraq güclü təxribat yaratmaqV ölkədə qarışıqlıq salmaq üçün hər yola əl atılır. İllərdir biz qüvvələri bu iyrənc anti-kampaniyaları davam etdirdiyini görürük. Bu gün qıvrıla-qıvrıla qalan bu dələduzlar yığnağı Azərbaycanda qarışıqlıq yaratmaq üçün tin kornavirusdan faydalanaraq, guya xalqın dərdinə qalmaq məqsədi ilə sosial şəbəkələrdən çağırışlar edir, mitinqlərə çıxmaqla bu problemdən xidas olmaq nail olacaqlarını bildirirlər. Səviyyəsi düşüncə buna deyilir. Erməni əsgərinin çəkməsinə "tryapka" olmağa razı olan Kərimli Əli, Həsənli Cəmillərdir ki, işğalçı və təcavüzkar Ermənistannı müdafiəsinə qalxaraq deyir ki, iqtidar Erməni dövlətin ancaq börtənlar yağdırır. Məqsəd nədir? "Milli Şura" dələduzları Azərbaycanda ikinci erməni dövləti qurmaq üçün işğalçı erməni əsgərinin çəkməsinə "tryapka" olmağa belə razıdırlar. Kimsə doğrudan da varlanmaq üçün, xəyanətinə əvəz olaraq pula satılır. Məhz buna görə də xəyanətin qiyməti yüksəkdir. Satqın üçün hər şey - satlıq maldır. Ancaq unutmaq olmaz ki, hər kəs gec-tez etdiyi cinayət əməllərinə görə də cəzasını çəkməlidir. Ancaq bu parazitlər anlamırlar ki, "sirkə nə qədər tünd olsa öz qabını çatladacaq".

### Cümşüd Nuriyev: ""Milli Şura"da təmsil olunanları Azərbaycan dövlətinin milli maraqları elə də mühüm əhəmiyyət kəsb etmir"

Politoloq Cümşüd Nuriyevin fikrincə, "Milli Şura"da təmsil olunanlar dövlətçilik, milli maraqlardan uzaq düşdüklərindən onlar üçün Azərbaycan dövlətinin milli maraqları elə də mühüm əhəmiyyət kəsb etmir: "Radikal müxalifət 30 il bundan qabaq hansı səviyyədə idisə, bu gün də həmin səviyyədədir. Onların fəaliyyətində heç bir irəliləyiş yoxdur. Bu qüvvələr yenə də köhnə prizmadan məsələlərə yanaşaraq, dövlətin, xalqın marağını deyil, öz şəxsi maraq və ambissiyalarını üstün tuturlar.

Radikallar hər şeyi uçurub dağıtmaqla hakimiyyətə gəlməyi sınaqdan keçirdilər, onun ağır nəticəsini də gördük. Şuşa, Laçın, Kəlbəcər və digər rayonlarımız işğal olundu. Hansı siyasi qüvvəni təmsil etməyindən, hakimiyyətdə kimin olmasından asılı olmayaraq bütün hallarda vətəndaşlar üşün dövlət maraqları şəxsi maraqlardan üstün olmalıdır. Ancaq görürük ki, "Milli Şura" adlanan qurum heç bir halda, heç bir məsələdə dövlətçilik mövqeyindən çıxış etmir. Onlar üçün Azərbaycanın zəifləməsi, başqalarının əlində alət olması yaxşıdır, təki özləri üçün yaxşı olsun və hakimiyyətə yiyələnsinlər. Belə düşüncədə olan siyasilər şəxsi maraqlarını milli maraqlardan üstün tuturlar. Təəssüf ki, "Milli Şura"da bu gün belə bir atmosfer hökm sürür".

### Vahid Məhərrəmli: "Bekarçılıqdı, tema da yoxdu, gəlin biz hökumətdən karantinə görə bu dəfə 500 manat tələb edək, nəyə görə tələb edək, bilirik onsuz verməyəcəklər"

Göründüyü kimi, mili xəyanətlə xəmirləri yoğrulanların "Milli Şura"da fəaliyyətlərini şər-böhtan üzərində qurduqlarını özləri də etiraf edir. Hələ çox etiraflar eşidiləcək. Və qeybətxana olan "Milli Şura"nın "zoom"la keçirilən son onlayn tədbirləri siyasi müzakirələrdən daha çox, qeybət, şər-böhtan məclisini xatırladır. Bu qurum son videomüşavirə ilə də özlərini bir daha ifşa etdilər. Belə ki, Milli Şura üzvü Vahid Məhərrəmli deyir ki, bekarçılıqdı, tema da yoxdu, gəlin biz hökumətdən karantinə görə bu dəfə 500 manat tələb edək, nəyə görə tələb edək, bilirik onsuz verməyəcəklər, amma biz bunu göründü üçün də olsa ona görə deməliyik ki, xalq da görməlidir ki, biz bu xalqın qayğısını çəkirik, qeydinə qalırıq".

Qənimət Zahidov isə etiraf edir ki, onların işi hökuməti şərləməkdir.

Bütün dünyada koronavirus adlı bəlaya qarşı mübarizə apardığı halda AXCP və MŞ üzvləri nırx dirəniblər ki, bu bir siyasi oyundur. Görülən tədbirləri gah "pulun yuyulmasına" bənzədir, gah da insanların guya çipləşdirilməsi yolu ilə idarə olunması kimi cəfəng fikirlər atırlar ortaya. Daha hökumətlərin iş-gücləri yoxmuş, bir-bir hamıya çip yerləşdirəcəklər ki, idarə etsinlər.

Deyir, "kar könlündəkin anlar", özləri korazehindirlər, elə bilirlər ki, hamı elədir. Bir baxın, neftin qiyməti düşüb, ancaq Azərbaycan iqtisadiyyatı, ölkəmiz yaşayır və qalib gəlir. Artım azalsa da, qeyri-neft sektorunda inkişaf öz yolu ilə gedir. Bəs, görəsən, radikalların intellektləri harada ilişib qalıb ki, baş verənləri ayıq başla təhlil etsin. Əlbəttə ki, təhlil aparmağa savadları çatırsa.?! Bu gün kərimlilər, həsənlilər və onlar kimiləri düşmənlərimiz ermənilərlə əlbir fəaliyyət göstərirlər.

### Sədaqət Vəliyeva: "Əli Kərimli kimilər sabah Dağlıq Qarabağın işğaldan azad olunması üçün müharibə başlayanda hansı xəyanətləri edəcəyi indidən bəllidir"

YAP Nizami rayon təşkilatının sədri, millət vəkili Sədaqət Vəliyeva həmişə Azərbaycana qarşı şər, böhtan etməklə fəaliyyətlərini erməni dəyirmanına su tökmək olub: "Onların sosial şəbəkələrdə küçələrdə əsassız çağırışları, insanları pandemiyaya inanmamağa sövq etməsi, siyasi məqsədləri naminə qaragüruhçuluq etmələri qanunla məhdudlaşdırılmalıdır. Biz həqiqətən də müharibə_virusa qarşı müharibə şəraitindəyik və bütün proseslər müharibə qanunlarına uyğun olmalıdır. Əgər pandemiya zamanı insanları hakimiyyət əleyhinə kökləyən, dövləti və xalqı zəlil günə qoymağa çalışan Əli Kərimli kimilər sabah Dağlıq Qarabağın işğaldan azad olunması üçün müharibə başlayanda hansı xəyanətləri edəcəyi indidən bəllidir. Bu səbəbdən də bütün qaydalar sərtləşdirilməlidir, cərimələr artırılmalıdır. Biz gələcəyimizi, xalqımızı, dövlətimizi məsuliyyətsiz, şəxsi mənafeyini düşünən insanlardan və xalqımıza, cəmiyyətimizə, dövlətimizə düşmən kəsilmiş Əli Kərimli, Gültəkin Hacıbəyli, Cəmil Həsənli kimilərdən xilas etməliyik".

"Balıq başından iylənər" el məsəlini xatırlayaraq qəti şəkildə deyə bilərik ki, belə şərəfsizliklər edənlərin baş siyasi fahişəsi də məhz elə Əli Kərimlidir! Bu o Əli Kərimlidir ki, ölkəmizin son 17 illik uğurlu işlərinə, bu işlərdə DÖVLƏT-XALQ BİRLİYİNDƏN qaşınmaya düşən Əli Kərimli yenə də yürüş edib çox sevdiyi klaviaturasına və daxilindəki tükənməz ermənixisləltiyini sosial şəbəkə vasitəsi ilə söndürməyə çalışır. Sən demə, dövlət xalqından "qorxurmuş" və bu da "faydalı" bir zadıymış-filan... Yəni demək istəyib ki, guya hakimiyyət hər dəfə bunların haray-şivənindən "qorxaraq", sözügedən addımları atır (?!). Bax, budur, ermənisifətli gəda? Bu gəda hələ də qanmır ki, hakimiyyət xalqdan "qorxmur", əksinə, xalqına xidmət edir, xalqının dərdinə-sərinə yanır, xalqı üçün bütün imkanlardan istifadə edir və ona görə edir ki, XALQ HAKİMİYYƏTİN MƏNBƏYİDİR! Bir də dərk etməyə nə əqli, nə də əxlaqı imkan vermir. İllər böyu rusun, farsın, ermənin, ingilisin, amerikalının, norveçlinin maşası, quyruq bulayanı ola, belə əxlaqsız və mənəviyyatını bütünlüklə qrantlara satan bir nakəsdən başqa nəyi gözləmək olar?! Pul müqabilində mitinqə qatılan 2800-3000 nəfər qaragüruhçunu, şəkil çəkdirib, ondan arayış alaraq, Avropaya "siyasi mühacir" statusunda getmək istəyən tör-töküntüləri xalqla səhv salan Ə.Kərimli, Cəmil Həsənli kimi nəsli, nəcabətini erməniləşdirən nacinsdən nə gözləmək olar?. Əslində, ortada təəccüblənəcək heç nə yoxdur. Hakimiyyətin uğurlarını "müxalifətin qələbəsi" kimi zorla xalqa sırımaq yalnız bu siyasi maşennikdən çıxar. Bu siyasi maşennik və Avropadakı süləngəclər sanırlar ki, mitinqlər etməklə, "hakimiyyət xalqla hesablaşacaq". Doğurdan da bədbəxtsiniz! Hakimiyyət xalqla bir yerdə bu qələbələri qazanır. Həmin qələbələri ki, uğursuzluqla nəticələnən yürüşlərdən sosial şəbəkələrə keçən sizin kimi erməni üfunəti verənlər elə o üfunət içində boğula-boğula qalacaqsınız, necə ki qalırsınız!

***Rəfiqə HÜSEYNOVA***

# Xalqın və dövlətin düşmənləri kimlərdir?

## *Müxalifətçi partiya sədrləri Prezident İlham Əliyevin bəyanatını dəstəkləyir və "Milli Şura"nın "neft qiyməti sevincini" hiddətlə qınamaqda davam edirlər*

***COVİD-19-un qlobal pandemiya şəraitində bütövlükdə dünya iqtisadiyyatına vurduğu zərbələri özünü bir sıra sahələrdə göstərməkdədir. Hətta ən aparıcı ölkələrin iqtisadi cəhətdən müəyyən çətinliklərlə üzləşməsi faktı dünya mətbuatında şərh olunmaqda, işıqlandırılmaqdadır. Xüsusilə, neft ölkələrinin bu məsələdə zərər görmək mümkünlükləri də istisna olunmur. Təbii ki, sərhədlərin bağlanması, ticari və s. dövriyyələrin məhdudlaşdırılması məhz mövcud vəziyyətin nəticəsidir. Daha dəqiq desək, pandemiya dünya bazarında neftin qiymətinin kəskin düşməsi ilə yanaşı, həm də neft ixrac edən ölkələrə təsirini göstərir.***




Əgər nəzərə alarsaq ki, digər aparıcı neft ölkələri ilə yanaşı Azərbaycanın da iqtisadiyyatında neft faktoru önəmli yer tutur, bu zaman ölkəmizin bəlli təsirlərə məruz qalması təəccüb doğurmamalıdır. Söz yox ki, bundan sevinənlər də var və onlar bilavasitə Azərbaycanı sevməyən, dövlətimizə qarşı düşmənçilik mövqeyi sərgiləyən dairələrdir. SİA-nın məlumatına görə, o əbəs deyil ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev yerli telekanallara iki gün öncə müsahibəsində neftin qiymətinin düşməsindən danışarkən bu məsələyə toxunub və vurğulayıb ki, neftin qiymətinin düşməsinə sevinənlərdən biri Ermənistandır, biri də antimilli şura. "Hər ikisi Azərbaycan dövlətçiliyinə düşməndir", deyən ölkə rəhbəri bu fikri ilə bir daha sübut edib ki, belə ucuz düşüncələrə sahib olanlar aşkar düşmənlərdirlər.

Onu da qeyd edək ki, hətta müxalifət partiyalarının əksər çoxluğu Prezident İlham Əliyevin haqlı olaraq antimilli şura adlandırdığı "Milli Şura"dakıların xəyanətkarlıqlarını və satqınçılıqlarını ifşa etməsinə dəstək göstərməklə yanaşı, qurum təmsilçilərini sərt şəkildə qınayıblar.

### ANAP: "Onların bəyanatları, fikir və düşüncələri xalqda narazılıq və hiddət yaradır"

Azərbaycan Naminə Alyans Partiyasının (ANAP) sədri Abutalıb Səmədova görə, radikal düşərgə təmsilçilərinin fəaliyyətləri 27 ildir ki, məhz bundan ibarətdir və onların düşüncələrinin nədən ibarət olduğu da bunu göstərir.

"Həqiqətdir ki, belə vəziyyət neçə ildir bu cür davam edir. Onların bəyanatları, fikir və düşüncələri xalqda narazılıq və hiddət yaradır. Yəni onlar yalnız hakimiyyəti deyil, xalqı da şərləyirlər və həqiqətən də xalqa pislik arzulayandırlar. Bu insanlara nəinki hakimyyəti, ümumiyyətlə heç nəyi etibar etmək olmaz".

ANAP sədri hesab edir ki, "Milli Şura"nın neftin qiymətinin aşağı düşməsinə sevinməsi də məhz bunun - xalqın, dövlətin əleyhinə işləməyin, düşmənçiliyin aşkar sübutudur.

ADP: "Sabah ölkəyə meteroid düşsə, sevinək ki, göydən Azərbaycanın üstünə daş düşdü?!"

ADP sədri Sərdar Cəlaloğluya görə, dünyada neftin qiymətinin düşməsi Azərbaycan hökumətindən asılı olan məsələ deyil. O, həmçinin bildirib ki, obyektiv səbəblərdən ölkə əhalisinin sosial vəziyyətinin aşağı düşməsinə sevinmək düşmənçilikdir. "Neftin qiyməti dünya bazarında müəyyən olunur və indi qiymət düşüb və buna görə ölkəmizin gəliri azalıb, buna görə sevinmək yox, kədərlənmək lazımdır. Kim ki, buna sevinir, deməli, doğrudan da düşməndir", deyə qeyd edən ADP sədri onu da bildirib ki, "Milli Şura"nın özü keçirdiyi iclasda orada səsləndirdikləri fikirlərlə əsas verib: "Həmin iclasda "Milli Şura" üzvləri neftin qiymətinin düşməsinə görə hətta birbirinə gözaydınlığı verirlər. Bunlar hərəkətləri ilə Prezidentə fakt veriblər. Adama deyərlər ki, sən neftin qiymətinin düşməsinə, yəni xalqın yaşayışının aşağı düşməsinə sevinirsən? Buna sevinmək düşmənçilik deyil bəs nədir? Sabah ölkəyə meteroid düşsə, sevinək ki, göydən Azərbaycanın üstünə daş düşdü?! Nə olar müxalifət olanda, müxalifət məgər xalqın zərərinə olan hər şeyə sevinməlidir?! Əsl müxalifət xalqın yaşayışında obyektiv səbəblərdən yaranan pisləşməyə görə narahat olmalıdır".

S.Cəlaloğluya görə, neftin qiymətinin düşməsinə sevinmək mənəviyyatsızlıqdır, xalqa xəyanətdir.

### AMİP: "Prezident İlham Əliyevin səsləndirdiyi fikirlərlə razılaşmamaq mümkün deyil"

AMİP-in sədr əvəzi Arzuxan Əlizadə də düşərgədəki həmkarı kimi düşünür və onun sözlərinə görə, bir müddət əvvəl internet məkanında yayılan video-görüntülər özünü "milli" adlandıran qurumun rəhbərliyində təmsil olunan bir çoxlarının əslində millilikdən nə qədər uzaq olduqlarını əyani olaraq nümayiş etdirdi: "Həmin görüntülərdən birinin "qəhrəmanı" olan "xanım lider" neftin qiymətinin 14 dollara düşməsini elə fərəh hissi ilə dilə gətirirdi ki, sanki nə isə çox böyük bir nailiyyət əldə ediblər. Təəssüf ki, digərləri də onun səsinə səs verdilər. Elə təkcə bu epizod həmin "siyasilərin" əslində millilikdən və dövlətçilikdən kənar hansı zehniyyətə sahib olduqlarını bir daha sübut etdi" .

Ölkə gəlirlərinin bilavasitə neftdən asılılığını bilərək, məlum vəziyyətlə əlaqədar dünya bazarında neftin qiymətinin düşməsinə sevinməyi ən yumşaq sözlə ifadə edərsə, öz dövlətinə düşmən mövqedə olmaq kimi qiymətləndirən AMİP yetkilisinə görə, bu baxımdan Prezident İlham Əliyevin səsləndirdiyi fikirlərlə razılaşmamaq mümkün deyil: "Çünki həqiqətən də həmin dövrdə sosial şəbəkələrdə yazılanlara nəzər yetirsəniz görərsiniz ki, həmin vaxt buna yalnız ermənilər sevinirdilər. Deməli, bu adamlar öz məqsədlərinə çatmaq üçün hətta vətəndaşı olduqları dövlətin də çökməsinə razıdırlar, hətta bunu arzulayırlar da.

Bu özünü "siyasətçi" hesab edən şəxslər isə hələ də anlamırlar ki, dövlətin iqtisadi gücünün azalması, ilk növbədə, onun özünün də mənsub olduğu dövlətin sıravi vətəndaşının maddi rifah halının daha da pisləşməsinə səbəb olacaq. Bu adamlar nəyə sevindiyinin fərqində deyil".

A.Əlizadə "Milli Şura"nın sədri Cəmil Həsənlini nəzərdə tutaraq bildirib ki, deputat olarkən, elə bu dövlətin neft gəlirləri ilə formalaşan büdcəsi hesabına Avropa turnelərinə çıxıb və ən acınacaqlısı da odur ki, bu adamlar özlərini "müxalifət liderləri" elan edərək hələ bu zehniyyətlə ölkəyə rəhbərlik etməyi də xəyallarından keçirirlər. Göründüyü kimi, artıq iqtidar tərəfdarları deyil, elə müxalifətin müxtəlif cinahlarında olan siyasilər də antimillilərin toplaşdıqları qurum rəhbərlərinin düşmən Ermənistanda Azərbaycana qarşı formalaşan fikirləri bölüşmələrini pisləyir, bunu xəyanət və satqınçılıq olaraq qiymətləndirirlər.

*Rövşən NURƏDDİNOĞLU*

# Azər Həsrət: "Öz liderinə xəyanət edən adamı Rəsulzadə ilə müqaisə etmək cahillikdir"

***"Mili Şura" adlanan, əslində isə, mahiyyət etibarı ilə anti-milli olan amorf qurum bizi dırnaqarası olaraq təəccübləndirməyə deyəsən hələ çox davam edəcək. Bu sözləri SİA-ya verdiyi açıqlamasında siyasi şərhçi Azər Həsrət deyib.***



Siyasi şərhçinin sözlərinə görə, bunlar oturub-durub gah neftin qiymətinin aşağı düşməsinə görə çəpik çalıb bayram edirlər, gah bunlardan biri çıxıb ortalığa deyir ki, biz hakimiyyəti şərləməliyik, şərləyirik, gah da bunlar özlərindən o qədər müştəbeh bir duruma çatırlar ki, Əli Kərimlini Məhəmməd Əmin Rəsulzadə ilə bir tərəziyə qoyacaq qədər nadanlıq sərgiləmiş olurlar.

"Əli Kərimli kimdir? Əli Kərimli Prezident İlham Əliyevin sözləri ilə desək öz liderinə xəyanət etmiş bir adamdır. Əli Kərimli Əbülfəz Elçibəyə hələ sağlığında, rəsmən onun müavini olduğu bir dönəmdə xəyanət etmiş bir adamdır. Yəni bunu Azərbaycanda siyasətlə məşğul olub bilməyən keç kimsə yoxdur, bu bir. İkincisi də Məhəmməd Əmin Rəsulzadə Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri kimi və bu ideologiyanın önündə gedənlərdən biri kimi milliyətçi, demokrat, müsavatçı bir şəxs idi, siyasət adamı idi, lider idi. Əbülfəz Elçibəy isə onun yolunun davamçısı elan etmişdi özünü. Yəni eyni ideologiyanın daşıyıcısı kimi siyasi səhnədə vardı. Əli Kərimli də Əbülfəz Elçibəyin ardıcılı idi. Yəni bu o deməkdir ki, Əli Kərimli də əslinə qalanda Məhəmməd Əmin Rəsulzadə ideologiyasının biri idi. Amma bu gün biz Əli Kərimlini Məhəmməd Əmin Rəsulzadə yolunun davamçılarından biri kimi görə bilərikmi? Əsla.! Çünki bu adam Rəsulzadə bir yana, Əbülfəz Elçibəyə sağlığında xəyanət eliyib, ondan savayı, Əbülfəz Elçibəyin söykəndiyi ideoloji dəyərləri illərdir ki, ayaqlar altına alıb. Yəni bu adam Əbülfəz Elçibəyin heç vaxt barışmayacağı, masa arxasında oturub müxakirə aparmayacağı xarici ölkələrlə, xarici mərkəzlərlə iş birliyi işindədir. Bu adam Azərbaycanda dini fanatizm yayan və məlum qonşu ölkənin xüsusi xidmət orqanlarına satılmış adamları müdafiə edir. Əbülfəz Elçibəy bunu etməzdi. Bu adam Azərbaycanda hakimiyyətə gəlmək üçün şimal paytaxtından belə dəstək almağa hazırdır. Əbülfəz Elçibəy bunu etməzdi. Ona görə də bu adamların özlərini Rəsulzadə ilə müqaisə etməsi, yaxud bunların arasından kiminsə çıxıb digərini Rəsulzadə ilə müqaisə etməsi, onun ardıcılı, davamçısı, günümüzün Rəsulzadəsi elan etməsi gülüşdən başqa heç nə doğura bilməz. Bu onların qeyri-ciddi olmalarının daha bir göstəricisidir. Mənə elə gəlir ki, bu adamlar tükəndiklərinin fərqindədirlər, gündəmdə qalmaq üçün müəyyən mövzu tapa bilmirlər, ona görə də bu cür məsələləri gündəmə gətirib özlərinin müzakirələrini təşkil edirlər. Lakin, qeyd etdiyim kimi, Əli Kərimliyə ən doğru siyasi qiyməti Cənab Prezident İlham Əliyev verib. O, Əli Kərimlini öz liderinə xəyanət eden bir adam kimi dəyərləndirib və bu da əsassız deyil. Öz liderinə xəyanət edən adamı Məhəmməd Əmin Rəsulzadə ilə müqaisə etmək belə cahillikdən başqa bir şey deyildir", deyə Azər Həsrət bildirib.

*İnam Hacıyev*

# Dağlıq Qarabağ həqiqətləri: bu günkü işğalın tarixi kökləri

***“Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin işğalını davam etdirir. Dağlıq Qarabağ və Azərbaycanın daha 7 rayonu 30 ilə yaxındır ki, Ermənistanın işğalı altındadır. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmişdür”. Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev 2020-ci il iyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammitində söyləyib.***

BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş bütün ərazilərindən qeyd-şərtsiz və tam çıxarılmasını tələb etdiyini deyən dövlətimizin başçısı bildirib: “Ermənistan bu qətnamələrə, habelə ATƏT, Qoşulmama Hərəkatı, NATO, Avropa Parlamenti və digər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş müvafiq sənədlərə əməl etmək əvəzinə işğal olunmuş ərazilərdə qeyri-qanuni məskunlaşma siyasəti həyata keçirir. Danışıqların mahiyyət və formatını məhv etməyə çalışan Ermənistanın baş nazirinin dediyinin əksi olaraq, Dağlıq Qarabağ Ermənistan deyil, Dağlıq Qarabağ Azərbaycandır və bütün dünya bunu belə tanıyır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır”.

Prezident İlham Əliyev vurğulayıb ki, Dağlıq Qarabağ Azərbaycandır: “Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı cənab Prezident dediyi kimi, biz məsələni müzakirə etdik. Bu məsələnin həlli yolları imzalanmış Birgə Bəyannamədə də göstərilir. Orada göstərilir ki, İtaliya və Azərbaycan bir-birinin ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərin toxunulmazlığına hörmətlə yanaşır və bunu dəstəkləyir. Eyni zamanda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin məhz bu prinsiplər əsasında, Helsinki Yekun Aktı, BMT və ATƏT tərəfindən qəbul edilmiş qətnamə və qərarların əsasında həll olunması göstərilir. Hesab edirəm ki, bu, çox ədalətli və beynəlxalq hüquqa əsaslanmış mövqedir və bu mövqeyə görə biz İtaliya tərəfinə minnətdarıq. O ki qaldı, məsələnin konkret həlli ilə bağlı addımlara, Ermənistan tərəfindən çox məyusedici və bir-birini inkar edən və ziddiyyətli bəyanatlar səslənir. Ermənistan rəhbəri bir dəfə demişdi ki, Dağlıq Qarabağ Ermənistandır.

Ondan sonra demişdir ki, Dağlıq Qarabağ müstəqil dövlətdir. Hər ikisi həqiqəti əks etdirmir. Dağlıq Qarabağ Azərbaycandır. Bunu tarix, beynəlxalq hüququn norma və prinsipləri göstərir. Azərbaycanın ərazi bütövlüyü, o cümlədən Dağlıq Qarabağ daxil olmaq şərtilə bütün dünya tərəfindən tanınır və qəbul edilir. Ona görə münaqişənin həlli yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır”.

Prezident İlham Əliyev növbəti dəfə mühüm beynəlxalq platformada Ermənistanın işğalçılıq siyasətini ifşa etdi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən sosial-iqtisadi siyasətin strateji məqsədləri sərbəst bazar münasibətlərinə və özünü inkişaf qabiliyyətinə malik olan sosialyönümlü, diversifikasiya olunmuş milli iqtisadiyyatın formalaşdırılması və dünya təsərrüfat sisteminə inteqrasiyanın təmin olunmasıdır. Davamlı və dinamik inkişaf məntiqinə əsaslanan bu siyasətin həyata keçirilməsi nəticəsində qazanılmış uğurlar daha da möhkəmləndirilmiş, bu dövrdə makroiqtisadi sabitlik qorunub saxlanılmış, iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sahələrinin, regionların inkişafı sürətlənmiş, strateji valyuta ehtiyatlarının səmərəli istifadəsi təmin olunmuş, milli valyutanın sabitliyi, bank sisteminin etibarlılığı artırılmış, konservativ xarici borclanma strategiyası həyata keçirilmiş, sahibkarlığa dövlət dəstəyi gücləndirilmiş, əhalinin sosial rifahı davamlı olaraq yaxşılaşmışdır.

Xalqımıza qarşı erməni təcavüzkarlığı və silahlı münaqişənin əsası XIX əsrin əvvəllərində qoyulmuşdur. Belə ki, XVII əsrin sonu - XVIII əsrin əvvəllərində çar Rusiyasının Osmanlı dövlətinin torpaqlarını bölüşdürmək, Aralıq dənizinə çıxış əldə etmək məqsədilə Türkiyə və İranla apardığı amansız müharibələrin nəticəsi olaraq, Rusiya və İran arasında bağlanmış 1813-cü il “Gülüstan” və 1828-ci il “Türkmənçay” müqavilələri ilə Azərbaycan xalqına qarşı tarixi ədalətsizlik rəsmiləşdirilmiş, Azərbaycan torpaqları bu iki dövlət arasında bölüşdürülmüş və həmin Türkmənçay müqaviləsi ilə hazırda da davam edən geosiyasi oyunların və faciələrin əsası qoyulmuşdur.

Türkmənçay müqaviləsi nəticəsində Azərbaycan İran və Rusiya arasında yenidən bölüşdürüldü. Gülüstandakı bölüşdürülməyə əlavə olaraq Azərbaycanın İrəvan və Naxçıvan xanlıqları da Rusiya imperiyasına qatıldı.

Araz çayının hər iki tərəfində daşınmaz əmlakı olan şəxslərə əmlaklarını 3 il ərzində satmaq, yaxud dəyişmək göstərişi verilmişdi. Lakin rus imperatoru İrəvan xanlığının sərdarı (baş komandanı) olmuş Hüseyn Xanı, onun qardaşı Həsən Xanı və Naxçıvan xanlığının başçısı olmuş Kərim Xanı bu imkanlardan məhrum etmişdi.

Türkmənçay müqaviləsinin şərtlərinə görə müharibədə Rusiya imperiyasına dəyən ziyanı İran tərəfi iyirmi milyon manat gümüş pul ilə ödəməyi öhdəsinə götürmüşdü.

Şərtlərə görə ikinci müharibə başlanmazdan qabaq, yaxud müharibə zamanı məcburiyyət qarşısında Çiəri çayı, Urmiya gölü, Cakatu çayı və Qızılüzən çayı xətti boyu ilə Araz çayı arasında yerləşən əraziləri tərk edən azərbaycanlılara geri, öz ocaqlarına dönmələrinə İran tərəfi icazə vermirdi. Ruslar isə öz növbəsində azərbaycanlıların Qarabağ, Naxçıvan və qismən İrəvan xanlıqları ərazilərinə, öz el-obalarına geri dönmələrinə imkan vermirdilər.

Türmənçay müqaviləsi nəticəsində Azərbaycan tam surətdə parçalanmışdı. Rusiya-İran müharibəsi dövründə milyonlarla azərbaycanlı öz el-obasını tərk etmişdi.

Həqiqi mülki müşavir Mogilevski və polkovnik Yermolov tərəfindən tərtib olunmuş Qarabağın 1823-cü ilə dair kameral siyahısında Hüseyn bəy və Şıxəli Ağa ilə birlikdə təkcə Cəbrayıl ərazisində 139 azərbaycanlı ailəsinin doğma yurdlarından didərgin düşməsi bildirilir. General-mayor Kotlyarovskinin general Rtişevə ünvanladığı 30 sentyabr 1812-ci il tarixli raportundan məlum olur ki, birinci Rus-İran müharibəsi dövründə təkcə Qarabağ xanlığında 4.845 azərbaycanlı ailəsi məcburiyyət qarşısında öz isti ocaqlarını tərk etmişdir.

Ruslar Cənubi Qafqaz və Azərbaycanın şimal ərazilərini işğalı prosesində müsəlman əhalisi arasında xristianlığı yaymaqdan ötrü missioner xristian cəmiyyətləri yaradırdılar. Rus imperiyasının müstəmləkə siyasətinin əsasını isə köçürülmə prosesləri təşkil edirdi. Gülüstan müqaviləsi imzalandıqdan sonra imperiya Azərbaycan ərazisinə ermənilərin kütləvi surətdə köçürülməsi prosesinə başlamışdır. Lakin Türmənçay müqaviləsinin imzalanmasından sonra ermənilərin Azərbaycan ərazisinə köçürülməsi kütləvi xarakter aldı. Onlar erməniləri ən çox Qaradağ, Naxçıvan və İrəvan xanlıqlarına köçürdülər, çünki bu ərazilər Cənubi Qafqazı əldə saxlamaqdan və Osmanlı imperiyasına qarşı plasdarm yaratmaqdan ötrü mühüm əhəmiyyətə malik idi. Ermənilərin bu ərazilərə köçürülmələri rusların qədim Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq arzusunu reallaşdırırdı.

Məsələn, Quberniya katibi Zolotnitski tərəfindən tərtib olunmuş Naxçıvan əyalətinin 1831-ci ilə dair kameral siyahısında Naxçıvan şəhərinə 110 nəfərdən ibarət 265 erməni ailəsinin köçürülməsi;

Günnüt kəndinə 513 nəfərdən ibarət 96 erməni ailəsinin köçürülməsi;

Arazın kəndinə 188 nəfərdən ibarət 39 erməni ailəsinin köçürülməsi;

Nuraşin kəndinə 60 nəfərdən ibarət 12 erməni ailəsinin köçürülməsi;

Qazançı kəndinə 104 nəfərdən ibarət 23 erməni ailəsinin köçürülməsi;

Qaraxanbəyli kəndinə 440 nəfərdən ibarət 101 erməni ailəsinin köçürülməsi faktları öz əksini tapmışdır.

Yuxarıda göstərilən faktlar rus imperiyasının təşkil etdiyi köçürülmə prosesini çox cuzi bir hissəsini təşkil edir. Rus imperiyasına qatılmış İrəvan və Naxçıvan xanlıqlarının bütün sənədləşmələrdə erməni vilayəti kimi adlandırılması haqda 21 mart 1828-ci ildə göstərişin verilməsi və arxiv sənədlərində öz əksini tapmış köçürülmə faktları imperiyanın qədim Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq istəyinə və ermənilərin Azərbaycana sonradan köçürülmələrinə əyani sübutdur.

Türkmənçay müqaviləsinin imzalandığı gündən 6 ay ərzində Naxçıvan və İrəvan xanlıqlarına aid bütün sənədlər və arxiv materialları Rusiya hakimiyyətinə təhvil verilmişdir.

Rusiya ilə İran arasında bağlanmış Gülüstan (12 oktyabr 1813-cü il) və Türkmənçay (10 fevral 1828-ci il) müqavilələri kimi sənədli mənbələr, habelə Qarabağ xanlığının Rusiyanın hakimiyyəti altına keçməsi haqqında Qarabağ xanı İbrahim xanla Rusiya imperiyasının 1805-ci il mayın 14-də imzaladıqları traktat əyani surətdə göstərir ki, imperiya sırf Azərbaycan torpaqlarını işğal etmişdir, ermənilər isə bura sonralar Türkiyə və İrandan köçürülüb gətirilmişlər. Bu sənədlərin heç birində Qarabağda erməni malikanələri və onların Rusiya tabeləyinə keçməsi haqqında işarə belə yoxdur.

***Vahid Ömərov,***
***Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent***

Azərbaycan Respublikasının
Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin
İnkişafına
Dövlət Dəstəyi Fondu

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb.*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

9 iyul

## İbrahimoviç: Mən "Milan"da prezident, oyunçu və məşqçiyəm!




"Milan" ın hücumçusu Zlatan İbrahimoviç İtaliya çempionatının 31-ci turunda "Yuventus"a qalib gəldikləri oyunu (4:2) şərh edib. İsveçli forvard "Football Italia"ya açıqlamasında adəti üzrə özünü tərifləyib. O bildirib ki, "Milan"da futbolçu olmaqla yanaşı, həm də məşqçi və prezidentdir:

"Mən yaşlıyam, bu sirr deyil. Ancaq yaş yalnız bir rəqəmdir. Yaxşı işləyirəm, bu gün son matçdakından daha çox oynadım. Özümü yaxşı hiss edirəm, komandaya kömək etmək üçün əlimdən gələni edirəm. Mən "Milan"da prezident, oyunçu və məşqçiyəm! Yeganə mənfi tərəfi odur ki, mənə yalnız oyunçu olduğum üçün pul ödəyirlər. Mövsümün əvvəlindən burada olsaydım, çempionluğu qazanardıq. Görək, növbəti mövsümdə də "Milan"da çıxış edəcəyəmmi? Oyundan zövq almaq üçün hələ bir ay var. Milanda hələ də çox xoşum gəlir.

38 yaşım var, əvvəlki həssaslığım yoxdur, amma ağıllıyam. Bura Talisman olmaq üçün yox, komanda yoldaşlarıma, kluba və azarkeşlərə kömək etmək üçün gəlmişəm".

Qeyd edək ki, 38 yaşlı futbolçu "Yuventus"la oyunda bir qol vurub və bir məhsuldar ötürmə edib.

## Xərçəngin düşməni - Qocalmağı gecikdirən meyvə

*Gündəlik meyvə istifadəsi sağlamlığımız üzün əvəzsizdir. Mütəxəssislər kişilərə gündə 3, qadınlara isə 2 porsiya meyvə yeməyi məsləhət görürlər.*



Odur ki, sağlamlığımız üçün daha çox faydalı olan və heç kimin süfrədən əksik etməməli olduğu yay meyvələrini təqdim edirik:

**Qarpız**

Vitamin və minerallar çox zəngindir. Tərkibindəki likopen maddəsi həm xərçəng riskini azaldır, həm də damar sağlamlığı üçün faydalıdır. İmmun sistemini gücləndirir, bədəni infeksiyalara qarşı daha davamlı edir. Tərkibindəki A vitamini göz sağlamlığının qayğısına qalır. Bədəndən toksik maddələri atmağa kömək edir. Barmaq qalınlığında bir dilim qarpız bir porsiya hesab edilir.

**Gilas**

A, C, K vitaminləri, o cümlədən fosfor, kalsium, dəmirlə zəngindir. Bağırsağın dostu kimi tanınır. Qəbzlik problemi yaşayanlar üçün ən yaxşı dərman vasitəsidir. Gilas həm də oynaq kirəclənməsindən əziyyət çəkənlər üçün də əsl tapıntı hesab edilə bilər. Tərkibindəki faydalı birləşmələr ürək-damar xəstəliklrindən qoruyur. 10-12 ədəd gilas bir porsiyaya bərabərdir.

**Gavalı**

Qan şəkərini tənzimləyir, güclü antioksidantdır. Həzm sistemini gücləndirir, qəbzliyi aradan qaldırır, metobolizmanı sürətləndirir.

Zəngin lif qaynağı olan gavalı toksik maddələri bədəndən çıxarmağa da kömək olur. 2 orta ölçülü gavalı bir porsiya hesab edilir.

**Üzüm**

Xolestrolu azaldır, vitamin tərkibi olduqca yüksəkdir. Yayda təzəsi, qışda isə qurudulmuşunu süfrədən əksik etməmək məsləhətdir. Üzüm qanın laxtalanmasının qarşısını alır. Bu sayədə də ürək-damar xəstəliklərindən qorumağa kömək edir. Gündəlik 1 salxım və ya 20 gilə üzüm bir porsiyadır.

**Şaftalı**

A və C vitaminlərinin mənbəyi olmaqla yanaşı tərkibindəki flavonoidlər sayəsində diabet və ürək xəstəliklərindən qoruyur. Ancaq çox istifadə qəbzliyə səbəb ola bilər. Gündə 1 ədəd yemək kifayətdir.

**Əncir**

Qocalmanı gecikdirir, tərkibi liflə zəngindir. Həzm sistemini tənzimləyir, bağırsaqlrı daha yaxşı işlədir. Əncir hüceyrələrin yenilənməsinə kömək edir, immun sistemini gücləndirir, xərçəngdən qoruyucu vasitə hesab edilir. Ancaq çox istifadəsi ishala yol aça bilər.

## Paytaxtda "Mercedes" yanıb



**Paytaxtın Binəqədi rayonunda "Mercedes" markalı minik avtomobilində yanğın baş verib. Fövqəladə Hallar Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, hadisə nəticəsində nəqliyyat vasitəsinin mühərrik hissəsi yanıb. Avtomobilin qalan hissəsi yanğından mühafizə olunub. Alov yanğından mühafizə bölmələri tərəfindən söndürülüb.**

## Alimlər: Beyin hərfləri kor-koranə görə bilər



*Kor insanların əksəriyyətində görmə qabiliyyətinin itməsi ya gözdəki, ya da görmə sinirindəki problemlə əlaqədardır. Yəni, beyin qaydasında olur və hansısa siqnalları qəbul edə bilər.*

"Nauka i jizn" saytında yer alan məlumatda deyilir ki, neyrobioloqların fikrincə, elektrod implantların köməyilə görmə nahiyəsini bilavasitə stimullaşdırmaq olar və kor adam da nəyisə görə bilər. Bu yolla mürəkkəb peyzajı modelləşdirmək çətin olsa da, hərfləri modelləşdirmək tam mümkündür. Aparılan eksperimentlərdə yanaşma adətən belə olub: hər elektrod vahid piksel rolunu oynaya bilər, beyin qabığına implant edilmiş elektrod-piksellər kompleksi isə hərfin təsvirini yaratmalıdır. Eksperiment zamanı elektrodların hamısı bir yerdə işə salınıb və nəticədə beyin hərfi deyil, aydın olmayan təsviri görüb.

Beylor Universitetindən olan tədqiqatçılar isə məsələyə başqa cür yanaşıblar: elektrodları eyni vaxtda deyil, birbirinin ardınca (şəkil çəkirmiş kimi) işə salıblar və beyinin görmə nahiyəsində sanki hərfin şəkli tədricən çəkilib. Eksperimentdə iştirak edən kor adamlar davamlı elektrod siqnalların köməyilə beyində hiss etdikləri fiqüru sensor ekranda barmaqları ilə çəkə biliblər. Yəni davamlı elektrod siqnalları beyində hər hansı fiqurу "görməyə" kömək edib. Təcrübədə sadə simvollardan, C, W və U kimi hərflərdən istifadə edilsə də, alimlərin fikrincə, beyinə daha mürəkkəb təsvirləri ötürmək mümkündür.

## Avtomobildən və evdən pul, mobil telefonlar oğurlayanlar yaxalanıb

***Paytaxtda oğurluqla məşğul olan şəxslər tutulublar. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iyulun 5-də Binəqədi rayonundakı "Toyota" markalı avtomobildən 325 manat məbləğində pul, 1890 manat dəyərində videomüşahidə qurğusu, eynək, geyim əşyaları, oyun diskləri və mobil telefon oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini M.İbrahimov rayon polis idarəsi 7-ci polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb.***



İyulun 6-da Nizami rayonunun Keşlə qəsəbəsindəki evlərin birindən 400 manat məbləğində pul və mobil telefon oğurlamaqda şübhəli bilinən Cəlilabad rayon sakini N.Hüseynov Nəqliyyatda Baş Polis İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində yaxalanıb. Faktlarla bağlı təhqiqat aparılır.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600